# ADLAR GÖSTƏRİCİSİ


Abaşidze, Məhəmməd bəy (yaxud Məmməd Abaşidze; Sancaqbəyzadə; 1873-1937): Gürcüstanın ictimai-siyasi xadimi, publisist və yazıçı. Müsəlman gürcülər icmasının lideri, "İslam Gürcüstanı" qəzetinin redaktoru olmuşdur. 1937-ci ildə güllələnmişdir. 403

Abbasqulu əfəndi (Axund Abbasqulu əfəndi): Şamaxılı axund. 618

Abbasqulu Məmi oğlu: Zərdabın Gəlməli kəndinin sakini. 238

Abbasquluzadə, Teymur (Məşhədi Teymur Abbasquluzadə). 621

Abbasov, Mirzə Əli (1874-1943): Azərbaycan aktyoru. Tiflisdə anadan olmuşdur. Tiflis Azərbaycan teatr truppasının üzvü olmuşdur. 563, 568

Abbaszadə, Abbas (Mizə Abbas; yaxud A. Mollazadə; 1870-1920): Azərbaycanlı pedaqoq və folklorşünas. Azərbaycan məktəbləri üçün dərsliklər qələmə almışdır. Bəzi əsərlərində "A. Mollazadə" imzasından istifadə etmişdir. Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin və Gəncə Türk Müəllimləri İttifaqının üzvü olmuşdur. 15, 65, 263, 501

Abbaszadə, Məhəmmədbağır: İranlıların Maarif Cəmiyyətinin üzvü. 348

Abbaszadə, Mirzə Abbas: bax. Abbaszadə, Abbas.

Abbaszadə, Şirəli: Tabaqçılar İttifaqının üzvü. 182

Abdulla Dadaş oğlu (Ağa Abdulla Dadaş oğlu). 621

Abdulla Əli oğlu: İrəvan qaçqını. 645

Abdulla Əsədulla oğlu: Rotşild mədənində fəhlə olmuşdur. 480

Abdulla paşa (Köləmən; 1846-1937): Türkiyənin siyasi xadimi. 11 noyabr 1918-ci ildə iş başına gələn Əhməd Tofiq paşa hökumətində Hərbi nazir olmuşdur. 173

Abdulla Şaiq: bax. Talıbzadə, Abdulla Şaiq.

Abdullah Cövdət (Karlıdağ; 1869-1932): Türk həkim, şair və siyasətçisi. 144, 231

Abdullayev: Qoşun qəzası pristavının müavini. 629

Abdullayev, Ələsgər (yaxud Şəkili Ələsgər; 1866-1929): Azərbaycan xanəndəsi. 326, 327

Abdullazadə, Həsən Səbri: Azərbaycan aktyoru. 409

Abdullazadə, Mahmud: Qazax Mütəəllimlər Cəmiyyətinin üzvü. 432

Abdullazadə, Nemətulla: Bakıda səyyar satıcı (tabaqçı); Tabaqçılar İttifaqının üzvü. 182

Abdullazadə, Səttar: Bakıda səyyar satıcı (tabaqçı); Tabaqçılar İttifaqının üzvü. 182

Abdullazadə, Tahir: Qazax Mütəəllimlər Cəmiyyətinin üzvü. 432

Abdullazadə, Təvəkkül İrani: Tağıyev fabrikində Zavod Komitəsinin üzvü. 452

Abidinov, İbrahim bəy: Bakı Mərkəzi Həbsxanasının müdiri; Bakı qubernatorluğu dəftərxanasının mütərcimi; kapitan. 450

Abutalıb. 621

Ada paşa: Hicaz ordusu zabiti. 198

Adil bəy (1865-1932): Osmanlı dövlətinin siyasi xadimi. İki dəfə (1909, 1919) Daxili işlər naziri olmuşdur. 89, 367

Adil əfəndi: bax. Adil bəy.

Ağa Şeyx Cavad: bax. Şeyx Cavad.

Ağabəyov: Muğan pristavının müavini olmuşdur. 628

Ağabəyov, Rza bəy (1894-1961): Göyçayda anadan olmuş, Moskvada hüquq təhsili almışdır. Göyçaydan Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, "Müsavat" fraksiyasının üzvü olmuşdur. 163, 222, 246, 360, 436

Ağabəyov, Sadıq bəy (yaxud Məhəmməd Sadiq Ağabəyzadə; 1865-1944): Azərbaycanın general-mayoru. Sankt-Peterburqda hərbi məktəbi, eyni zamanda Şərq Dilləri İnstitutunu bitirmişdir. Azərbaycan Parlamentinin üzvü, Daxili İşlər nazirinin müavini olmuşdur. Cümhuriyyətin süqutunda sonra mühacirətdə yaşamışdır. 402, 403, 420

Ağacəbrayıl: Bakı sakini. 589

Ağaəlizadə, Axund Ağa (1871-1954): Azərbaycanın dini xadimi. 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin, 1944-1954-cü illərdə Qafqaz müsəlmanlarının şeyxülislamı olmuşdur. 45, 79, 80, 81, 110, 302, 487, 570

Ağaəlizadə, Hacı Fətulla Hacı Məhəmmədcavad oğlu (1878 - ?): Azərbaycanlı həkim. Kazan Universitetinin Tibb fakültəsini bitirmişdir. Bakı Şəhər Dumasının üzvü olmuşdur. 24, 49, 76, 104

Ağakərim Mehdi oğlu (Kərbəlayı Ağakərim Məşhədi Mehdi oğlu): Bakı sakini. 589

Ağakişi Baxış oğlu: Zəngəzur qaçqını. 534

Ağaqulu Hüseynqulu oğlu: Xırda İstiqraz və Əmanət Cəmiyyətləri İttifaqının İdarə üzvlüyünə namizəd. 319

Ağamalıoğlu, Səməd ağa (yaxud Ağamalızadə; Ağamalıyev; Ağamalov 1867-1930): Azərbaycanın və Sovet İttifaqının dövlət xadimi. Zaqafqaziya Seyminin və Azərbaycan Milli Şurasının üzvü olmuş, Azərbaycan Cümhuriyyəti Parlamentində Sosialistlər fraksiyasını təmsil etmişdir. Sovet dövründə Azərbaycanın Kənd Təsərrüfatı xalq komissarı vəzifəsini tutmuş, Azərbaycan Sovet Sosialist Repsublikası Mərkəzi İcraiyyə Komitəsinin sədri, Zaqafqaziya Sovet Federativ Sosialist Repsublikası Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri olmuşdur. 30, 139, 163, 164, 165, 220, 266, 306, 360, 413, 436, 438, 516, 603, 631

Ağaməhəmməd İlyas oğlu: fəhlə. 645

Ağamirzə: Bakı sakini. 589

Ağanəsirov, Əli bəy: Gəncə poçt-teleqraf idarəsinin müdiri olmuşdur. 302

Ağaseyidhüseynzadə, Ağamirəliəsgər. 240

Ağayev, Baxış: “Müsavat”ın Şura üzvü. 73

Ağayev, Əlinağı (Mirzə Əlinağı): Dərbənd Müsəlman Tələbələri Komitəsinin üzvü olmuşdur. 378

Ağayev, Həsən bəy (1875-1920): Azərbaycanın görkəmli dövlət xadimi. Moskva Universitetinin Tibb fakültəsini bitirmişdir. Azərbaycan Milli Şurasının 28 may 1918-ci il tarixli iclası (Azərbaycanın müstəqilliyinin elan edildiyi iclas) Həsən bəy Ağayevin sədrliyi ilə keçirilmişdir. Azərbaycan Parlamenti sədrinin birinci müavini olmuş və Parlamentin sədri Topçubaşov Bakıda olmadığından, Həsən bəy faktiki olaraq Parlamentə rəhbərlik etmişdir. Tiflisdə erməni terroristi tərəfindən qətlə yetirilmişdir. 1, 45, 138, 161, 220, 305, 357, 358, 383, 412, 601

Ağayev, Novruz: bax. Ağazadə, Novruz.

Ağayev, Səməd bəy: Şuşa Realnı məktəbinin müfəttişi olmuşdur. 482

Ağayi-Bəyanülmülk: bax. Bəyanülmülk (Ağayi-Bəyanülmülk).

Ağayi-Mirzə Tahir: bax. Mirzə Tahir.

Ağayi-Seyid Məhəmməd: bax. Seyid Məhəmməd.

Ağazadə: Baş nazirin xüsusi katibi olmuşdur. 72

Ağazadə, Əlinağı: bax. Ağayev, Əlinağı.

Ağazadə, Fərhad Məşhədi Rəhim oğlu (1880-1931): Azərbaycanın görkəmli pedaqoqu və publisisti. Şuşada anadan olmuş, Qori Seminariyasını bitirmiş, Azərbaycanın müxtəlif yerlərində müəllim işləmişdir. Məktəblilər üçün “İkinci il” dərsliyinin müəlliflərindəndir. Dövri mətbuatda çıxış etmiş, həmçinin “Azərbaycan” qəzetinin ən fəal müəlliflərindən olmuşdur. 204, 260, 271, 426, 499, 555, 640

Ağazadə, Novruz: “Müsavat”ın Şura üzvü. 73, 155

Ağlarcazadə, Mustafa Haqqı (1867-1923): Türk yazıçısı və siyasətçisi. Türkiyə





Böyük Millət Məclisinin üzvü olmuşdur. 615

Axıcanov, Müseyib bəy (1892-1920): Azərbaycanın dövlət xadimi. Kiyevdə Müqəddəs Vladimir Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı qubernatorunun müavini, Bakı qubernatoru, Azərbaycan Parlamentinin üzvü olmuşdur. Bolşeviklər tərəfindən güllələnmişdir. 603, 645

Axıskalı: “Azərbaycan” qəzetində imza; çox güman ki, Əhməd Cövdət Pepinova məxsusdur.

Axund Mirmahmud ağa: Göyçay qazısı. 403

Axund Nəsir oğlu: bax. Axundzadə, Mirzə Hüseyn Axund Nəsir oğlu.

Axundov: Göyçay şəhərinin pristavı, sonra Qəbristan qəza pristavı olmuşdur . 629

Axundov: Tiflisdə Azərbaycan teatr truppasının üzvü olmuşdur. 564

Axundov, Bəhram bəy Məşhədi Mirzə Cəfərqulu bəy oğlu (1872-1932): Azərbaycanın ictimai-siyasi xadimi; həkim. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 130

Axundov, Əsədulla: bax. Axundzadə, Əsədulla.

Axundzadə, Böyükağa: Bakıda, “Müsavat” tərəfindən çağırılan müsəlman şagirdləri iclasının sədri olmuşdur. 534

Axundzadə, Əsədulla: Xırda İstiqraz və Əmanət Cəmiyyətləri İttifaqının İdarə üzvü. 318, 319

Axundzadə, Hacı Mirzə Səlim Mirzə İsmayıl Qasir oğlu (1872-1930): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Aprel işğalından sonra İrana mühacirətə getmişdir. 128, 240

Axundzadə, İbrahim: müəllim. 373

Axundzadə, İsmayıl Məhəmmədhəsən oğlu (Axund Hacı Molla İsmayıl). 406

Axundzadə, Məhəmmədcəfər (Hacı Məhəmmədcəfər): Şeyxülislamlıq İdarəsinin üzvü olmuşdur. 79, 80

Axundzadə, Məhəmmədəli (Məşhədi Məhəmmədəli): Qazaxda müəllimlər kursunun müdavimi. 349

Axundzadə, Məhəmməd Sadıq: bax. Aran, Məhəmməd Sadıq.

Axundzadə, Mirzə Hüseyn Axund Nəsir oğlu: müəllim; Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 528

Axundzadə, Mirzə Sadıq: bax. Aran, Məhəmməd Sadıq.

Axundzadə, Sadıq: bax. Aran, Məhəmməd Sadıq.

Axundzadə, Səlim: bax. Axundzadə, Hacı Mirzə Səlim.

Axvelediyani (? - 1919): Gürcü cinayətkar. 351

Akif paşa (1787-1845): Osmanlı müəllifi və dövlət xadimi. Şeirləri ilə birgə, nəsr əsərləri ilə də tanınmışdır. 203

Aknar, Həmdi Suad (1873-1936): Türk doktoru və ictimai xadimi. 615

Akuşinski, Əli Hacı (1847-1930): XX əsrin əvvəllərində Dağıstanın ictimai-siyasi xadimi və dini lideri olmuşdur. 394

Aqayev, Aram: İrəvan qəzası ermənilərinin rəhbərlərindən olmuşdur. 237

Aqayev, Tiqran: İrəvan qəzası ermənilərinin rəhbərlərindən olmuşdur. 237

Aqil Muxtar: bax. Özdən, Məhməd Aqil Muxtar.

Aqinyanaşvili: Gürcü bolşeviki. 647

Alberqoyev, Rauf: Dağıstanlılar Müttəfiq Məclisinin üzvü. 6

Albrando, Nikolay: fəhlə hərəkatı xadimi. 322

Alfonso XIII [Alfonso XIII; 1886-1941]: İspaniya kralı. Özündən əvvəlki İspaniya kralı, atası XII Alfonsonun vəfatından sonra doğulduğundan, anadan olan kimi tac geymişdir. 1931-ci ildə hakimiyyətdən devrilmiş, həyatının son illərini mühacirətdə keçirmişdir. 490

Allahverdi Ələsgər oğlu: Qarsın Qızıldaş kəndinin sakini. 472

Allahverdiyev: Biləsuvar pristavının müavini olmuşdur. 628
Allahverdiyev, Əliheydər (1888-1972): Bakıda fəaliyyət göstərmiş həkim; Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 24, 49, 76, 103, 134, 184, 213, 241, 268, 297, 351, 376, 405
Allenbi, Edmund [Edmund Allenby; 1861-1936]: İngilis feldmarşalı. Birinci Dünya müharibəsindən sonra İngiltərənin Yaxın Şərqdə ali komissarı [High Commissioner] olmuşdur. 86, 198, 444
Alşibaya, Qriqol: Gürcüstanın Azərbaycandakı siyasi nümayəndəsi olmuşdur. 420
Altman, R. M.: Bakıda diş həkimi olmuşdur. 50, 104, 185, 242, 297, 352, 405, 458, 510, 538, 593
Aluşturov: Gürcüstanın siyasi xadimi. 648
Anaxanım Hacıdadaş qızı. 103
Anaksimandros (yaxud Miletli Anaksimandr; e. ə. 611-546): Qədim yunan filosofu. 260, 261, 271
Anatoli: mitropolit. 519
Andranik: bax. Ozanyan, Andranik.
Annunsio: bax. D'Annunsio, Qabriele.
Apresov, Baqrat: Rusiyanın və Ermənistanın hərbi xadimi; polkovnik. 457
Apresyan: bax. Apresov, Baqrat.
Aran, Məhəmməd Sadıq (Axundzadə; 1895-1976): Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü, jurnalist. Cümhuriyyətin süqutundan sonra fəaliyyətini mühacirətdə davam etdirmişdir. 161, 248, 323, 360, 482, 507, 590
Araratyan, Sarkis (1886-1943): Ermənistanın siyasi xadimi. Ermənistanın Tehrandakı səfiri olmuş, habelə müxtəlif vaxtlarda Maliyyə, Sosial Yardım, Daxili İşlər naziri kimi vəzifələr tutmuşdur. Mühacirətə getmişdir. 350, 404
Arin. 621
Aristidi: Qədim yunan filosofu. 260, 261
Aristotel (yaxud Ərəstu; e. ə. 384-322): qədim yunan filosofu. 639
Arqunov, Andrey Aleksandroviç (1866-1939): Rusiyanın siyasi xadimi. Socialist-inqilabçılar partiyasının liderlərindən biri olmuşdur. Rusiya Müvəqqəti Hökumətinin (Direktoriyanın) tərkibində N. D. Avksentyevin müavini idi. 85
Arnold: pəhləvan. 27
Arşak Akop oğlu: İrəvan qəzası ermənilərinin rəhbərlərindən olmuşdur. 237
Arutyunov, Balabek: İrəvan qəzası ermənilərinin rəhbərlərindən olmuşdur. 237
Arutyunov, Qazo: İrəvan qəzası ermənilərinin rəhbərlərindən olmuşdur. 237
Arutyunov, Murat: İrəvan qəzası ermənilərinin rəhbərlərindən olmuşdur. 237
Arvis, İ.: Batumda hərbi qubernator əvəzi olmuşdur. 56
Asəfülməmalik, Məhəmməd Əli: İranın siyasi xadimi. 446
Aslan: Bakı sakini. 589
Aslan (Hacı Aslan): kababçı. 240
Aslan Əsgər oğlu (Kərbəlayı Əsgər oğlu): Gəncədə Kəndçi-Əkinçi İttifaqı Mərkəzi Komitəsinin üzvü. 296, 483
Aslan Məhəmməd oğlu (Hacı Aslan Kərbəlayı Məhəmməd oğlu): Bakı sakini. 589
Aslanov, Əmir bəy (1892-1942): Azərbaycanlı həkim. 105, 157, 243, 298, 352, 405, 459, 511, 539, 624
Aşurbəyli, İsa bəy (1878-1938): Azərbaycanın ictimai-siyasi xadimi və xeyriyyəçisi. Bakı Şəhər Dumasının və "Nicat" cəmiyyətinin üzvü olmuşdur. Birinci Dünya müharibəsində əsir düşən türk əsgərlərinə yardım edən komitənin işində fəal iştirak etmişdir. Mətbuatda "Həqqi" təxəllüsü ilə çıxış etmişdir. 1938-ci ildə güllələnmişdir. 410, 457, 462, 537
Aşurov, Ağa (1880-1936): Azərbaycanın dövlət xadimi. Bakıda anadan olmuşdur. Azərbaycan Cümhuriyyəti dövründə Parlamentin üzvü olmuş, Ticarət və Sənaye naziri, Ərzaq naziri, Poçt və Teleqraf naziri kimi vəzifələrdə işləmişdir. Cümhuriyyətin süqutundan sonra Rostova köçmüş, orada vəfat etmişdir. 31, 247, 306, 307, 308, 384, 385, 414, 438
Aşurov, Ələsgər Hacıbaba oğlu (? - 1919). 515
Aşurov, Əliiskəndər. 515
Aşurov, Səftər Əliiskəndər oğlu. 515
Aşurov, Səttar Əliiskəndər oğlu. 515
Atabəy. 621
Atabəyov: Bibiheybətdə "Kaspiyski" şirkətinin mədən müdiri olmuşdur. 505
Atamalıbəyov, Abbas bəy Seyfulla bəy oğlu (1896-1971): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Milli Şuranın və Parlamentin üzvü olmuşdur. Mühacirətdə yaşamışdır. 161
Atatürk, Mustafa Kamal (1881-1938): Türkiyənin dövlət xadimi. Türk Qurtuluş Savaşının Baş komandanı. Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti. 339, 340, 365, 490, 523, 524, 543, 544, 545
Atayans, İshak Avetisoviç: Bakıda həkim olmuşdur. 49, 104, 184, 213, 269, 325, 377, 434, 511, 539, 593
Atkin, Edvar: İngilis jurnalisti. 171
Atmanaki: Şuşa Realnı məktəbinin müfəttişi olmuşdur. 482
Averyanov, Pyotr İvanoviç (1867-1937): Rusiyanın hərbi xadimi; general. 1917-ci ildə Rusiyanın müharibədə ələ keçirdiyi türk vilayətlərinin baş komissarı təyin edilmişdi. 473
Avksentyev, Nikolay Dmitriyeviç (1878-1943): Rusiyanın siyasi xadimi. Sosialist İnqilabçılar Partiyasının üzvü idi. Ümumrusiya Müvəqqəti Hökumətinin (Ufa Direktoriyasının) sədri olmuşdur. 85
Ayn. əfəndi: "Azərbaycan" qəzetinə Gəncədən yazmışdır. 296
Ayn. H.: bax. Hacıbəyli, Üzeyir.
Ayn. Kamal: bax. Kamal, Qəliəsgər.
Ayn. Məhzun: bax. Rəhimov, Əli Zeynalabdin oğlu.
Ayn. R.: "Azərbaycan" qəzetində imza. 582
Ayn.zadə: "Azərbaycan" qəzetində imza; Bakıdan yazmışdır. 345
B. Mürşüd: bax. Səttaroğlu, Balaqədəş Mürşüd.
Baba. 621
Baba. 621
Babacanova, Vartanuş: aktrisa; Tiflisdə Azərbaycan teatr truppasının üzvü olmuşdur. 563
Babanzadə, İsmayıl Haqqı (1876-1913): Türkiyənin siyasi xadimi, jurnalisti və yazıçısı. 195
Babayev, Əliheydər: fabrik müfəttişi. 217
Babayev, Əliheydər Ağadadaş oğlu (Məşhədi Ağadadaş oğlu; 1890 - ?): mühəndis-texnoloq. Xarkov Texnologiya İnstitutunu bitirmişdir. Müxtəlif dövlət qulluqlarında işləmiş, Bakı Politexnik Məktəbinin müəllimi olmuşdur. 236
Babayev, Mirzağa. 621
Badolyo, Pyetro [Pietro Badoglio; 1871-1956]: İtaliyanın hərbi xadimi, marşal. 1943-1944-cü illərdə Baş nazir olmuşdur. 36
Bağırov, Hilal (Məşhədi Hilal): Göyçaydakı Şamaxı qaçqınlarından. 591
Bağırov, Məhəmmədtağı: bax. Bağırzadə, Məhəmmədtağı.
Bağırzadə, Hilal: "Müsavat"ın Şura üzvü. 73
Bağırzadə, Məhəmmədtağı: aktyor. 409
Baxış Abbas oğlu: Səbzman kəndi sakini. 40
Bakard. 205
Bakuradze: Gürcüstanın siyasi xadimi. 648
Balakərim Cəmşid oğlu: Balaxana kəndinin sakini. 212
Balaqədirov, Həsən. 621
Balasanov. 34
Balfur, Artur [Arthur Balfour; 1848-1930]: Britaniyanın dövlət xadimi. 1902-1905-ci illərdə Baş Nazir, 1916-1919-cu illərdə Xarici İşlər naziri olmuşdur. 417, 549
Baltacıoğlu, İsmayıl Haqqı (1886-1978):

Türk maarif xadimi və yazıçısı. İstanbul Universiteti Ədəbiyyat Fakültəsinin dekanı (1920-1923), İstanbul Universitetinin rektoru (1923-1925), Türkiyə Böyük Millət Məclisinin üzvü (1943-1950) olmuşdur. 615

Bammatov, Heydər (yaxud Heydər Bammat; 1889-1965): Dağıstanın siyasi xadimi. Sankt-Peterburq Universitetinin Hüquq fakültəsində oxumuşdur. Dağlılar Respublikasının Xarici İşlər naziri olmuş, 1921-ci ildə mühacirətə getmişdir. 130, 449

Baratov, Nikolay Nikolayeviç (1865-1932): Rusiyanın hərbi xadimi; general. Birinci Dünya müharibəsi dövründə İranda xidmət edən Birinci Qafqaz süvari korpusunun komandiri olmuşdur. Oktyabr inqilabından sonra ağqvardiyaçılar hərəkatına qoşulmuş, Gürcüstan hökuməti yanında Denikinin nümayəndəsi olmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 5, 169, 646, 647

Barrett, Artur [Arthur Barrett; 1857-1926]: Britaniyanın hərbi xadimi; feldmarşal. Hindistanda xidmət etmiş, Üçüncü ingilis-əfqan müharibəsində (1919) ingilis qoşunlarının komandanı idi. 1921-ci ildə feldmarşal rütbəsi almışdır. 174

Barton, Ceyms Levi [James Levi Barton; 1855-1936]: Amerika missioneri; Yaxın Şərqə yardım üzrə Amerika Komitəsinin sədri olmuşdur. 86

Basqali: bax. Hüseynov, Abdulla.

Bauer, Otto [Otto Bauer; 1881-1938]: Avstriyanın siyasi xadimi; sosial-demokrat. 1918-ci ilin noyabrından 1919-cu ilin iyuluna qədər Xarici İşlər naziri olmuşdur. 443

Baydaman: Rusiyanın hərbi xadimi; qvardiya polkovniki. 364

Bayram Əbdülhüseyn oğlu: Üngütlü kəndi sakini. 238

Bayram Qiyas oğlu: Zəngəzur qaçqınlarından. 561

Bayram Məhəmməd oğlu: Qaçqın Axısxa türklərindən. 481

Bayrambəyov, Əziz bəy: Göyçay qəza rəisinin müavini, Bakı polismeysterinin müavini kimi vəzifələrdə işləmişdir. 398

Bayramov, Əli: Tiflisdə Azərbaycan teatr truppasının üzvü olmuşdur. 564

Beqlov: Şimali Osetiyada bolşevik dəstəsi başçısı. 313

Bendeberi: Cəbubi Rusiya Silahlı Qüvvələri Dəniz İdarəsi İşlər müdiri; ştabs-rotmistr. 585

Bendeberya: Bakıdakı Denikin nümayəndəsi. 4

Berxtold, Leopold fon [Leopold von Berchtold; 1863-1942]: Avstriya-Macarıstanın siyasi xadimi və diplomatı. 1912-1915-ci illərdə Xarici İşlər naziri olmuşdur. 337

Bermondt-Avalov, Pavel Rafailoviç (1877-1973): Rusiyanın hərbi xadimi; general-mayor. Ağqvardiyaçılar hərəkatının Pribaltikadakı nümayəndəsi idi. 338, 606

Bermont (polkovnik Bermont): bax. Bermondt-Avalov, Pavel Rafailoviç.

Bəbirov: Qoşun qəzası pristavının müavini. 629

Bədəlbəyov, B.: Qarabağ general-qubernatorluğunun məmuru. 237

Bəhlul Behcət (Bəhlul Behcət əfəndi; 1869-1938): Zəngəzur qazısı; ədəbiyyatşünas. Dondarlı kəndində (Qubadlı) anadan olmuşdur. Xalq ədəbiyyatı və folklor nümunələrinin toplanmasında xidmətləri olmuşdur. Repressiyaya məruz qalmışdır. 432, 475, 476, 507

Bəhmən bəy: Ərəş qəzası ikinci sahə pristavı. 532

Bəxtiyari, Nəcəfqulu xan (Səmsamüssəltənə; 1851-1931): İranın siyasi xadimi. 1911-1913 və 1918-ci illərdə iki dəfə İranın Baş naziri olmuşdur. “Səmsamüssəltənə” (səltənətin kəskin qılıncı) ləqəbi ilə məşhur olmuşdur. 445, 446

Bəkir ağa (yaxud Binbaşı Bəkir ağa; 1817-1887): Türkiyənin hərbi xadimi; binbaşı (mayor). Hərbi Nazirliyin həbsxanasının





müdiri olmuşdur. Xalq arasında bu həbsxanaya “Bəkirağa bölüyü” adı verilmişdir. 270

Bəkir Sami bəy: bax. Kunduh, Bəkir Sami.

Bəşir Paşa oğlu: Zəngəzur qaçqını yetim uşaq. 505

Bəyanülmülk: İranın siyasi xadimi. 446

Bəylərov: Tiflisdə Azərbaycan teatr truppasının üzvü olmuşdur. 564

Bıç, Luka Lavrentyeviç (1870-1945): Kuban kazaklarının siyasi və ictimai xadimi. Hüquq təhsili almışdır. Bakıda işləyərkən Bakı Şəhər Dumasına üzv seçilmiş, 1912-1917-ci illər arasında Bakı Şəhər İdarəsinin rəisi olmuşdur. 1917-ci ilin Fevral inqilabından sonra Kubana qayıtmış, Kuban Hökumətinin sədri seçilmişdir. Kuban heyətinin başçısı olaraq Paris Sülh Konfransında iştirak etmiş, Kuban Xalq Respublikası süqut etdikdən sonra mühacirətdə qalmışdır. 449

Binadər İbrahim oğlu: Məhəmmədqasımlı kənd sakini. 238

Bir nəfər əmələ: “Azərbaycan” qəzetində imza. 584

Bir nəfər fəhlə: “Azərbaycan” qəzetində imza. 454

Biren, Məhməd Tofiq (1867-1956): Türkiyənin siyasi xadimi. Müxtəlif dövlət vəzifələri tutmuş, 1919-cu ilin martından 1920-ci ilin martına qədər, eləcə də 1922-ci ilin aprel-noyabr aylarında Maliyyə naziri olmuşdur. 366

Bitti, Devid [David Beatty; 1871-1936]: Britaniyalı dənizçi. Birinci Dünya müharibəsində Britaniya donanmasının komandirlərindən biri. 1916-cı ildə admiral rütbəsi almışdır. 417

Blajevski, V. F.: Azərbaycan Cümhuriyyəti Poçt və Teleqraf Nazirliyi dəftərxanasının müdiri olmuşdur. 105, 110, 138, 302

Bliss, Tasker [Tasker Bliss; 1853-1930]: Amerikanın hərbi xadimi; general. Amerika Baş qərargahının sədri olmuş, eyni zamanda Versal Sülh müqaviləsinin müzakirələrində iştirak etmişdir. 466, 636

Bobrov, İvan: Biləsuvar pristavı müavini. 429, 561

Boqadır: Hind racası. 196

Boqatıryov: pəhləvan. 1, 53, 137, 189, 273, 301, 628

Borason, Abon. 98, 106

Bozqurd, Mahmud Əsəd (1892-1943): Türkiyənin ictimai və siyasi xadimi, hüquqşünas. Türkiyə Böyük Millət Məclisinin üzvü, Ədalət naziri olmuşdur. 615

Böyük Petro: bax. Pyotr I.

Bratianu, İonel [Ionel Brătianu; 1864-1927]: Rumıniyanın dövlət xadimi. Rumıniya Milli-Liberal Partiyasının lideri olmuşdur. Daxili İşlər, Müdafiə, Xarici İşlər naziri vəzifələrini tutmuş, müxtəlif vaxtlarda beş dəfə (o cümlədən 1914-cü ilin yanvarından 1918-ci ilin fevralına və 1918-ci ilin dekabrından 1919-cu ilin dekabrına qədər) Rumıniyanın Baş naziri olmuşdur. 280, 336, 494

Bredov, Nikolay Emilyeviç (1873 - ?): Rusiyanın hərbi xadimi; general-leytenant. Ağqvardiyaçılar hərəkatının iştirakçısı. Könüllü ordunun Tsaritsın, Poltava, Kiyev və Çerniqovu işğalında iştirak etmişdir. Mühacirətə getmişdir. 521

Bref: Tiflisdəki ingilis generalı. 403, 469, 622

Brinton, Jasper Y.: Birinci Dünya müharibəsindən sonra ABŞ prezidenti Vilson tərəfindən Yaxın Şərqə göndərilən General Harbord Missiyasının üzvü olmuşdur. 100

Bristol, Mark Lambert [Mark Lambert Bristol; 1868-1939]: Amerikanın hərbi xadimi; admiral. 1919-1927-ci illərdə ABŞ-Türkiyə münasibətlərində Ali Komissar kimi öz ölkəsini təmsil etmişdir. 196

Bryançaninov: Londondakı Rus Milli Komitəsinin sədri olmuşdur. 549

Budentsov: Qırmızı ordu komandanı. 465

Budyonnı, Semyon Mixayloviç (1883-1973): Rusiyanın hərbi xadimi, marşal. 546, 567, 574

Bulkanov, Mustafa bəy: Dağıstanlı qaçqınlardan, tələbə. 401

Bullit, Vilyam [William Bullitt; 1891-1967]: Amerikanın siyasi xadimi və diplomatı. Paris Sülh Konfransında iştirak edən Amerika heyətinin tərkibində yer almışdır. 1919-cu ildə Sovet Rusiyasına gedən ABŞ heyətinin başçısı olmuşdur. 1933-1936-cı illərdə SSRİ-də, 1936-1940-cı illərdə Fransada səfir olmuşdur. 635, 636, 637

Buyneviç, Kazimir-Adam Albinoviç (1872-1953): Rus həkimi; Moskva Universitetinin professoru. 185, 242, 298, 352, 406, 459, 511, 539, 593

Buyvolov: pəhləvan; “Sibirya ayısı” ləqəbi ilə tanınmışdır. 53, 109, 217, 329, 355, 409, 515, 542

Bünyadzadə, Dadaş (1888-1938): “Hümmət” üzvü. Sovet dövründə Xalq Komissarları Sovetinin sədri, Maarif komissarı, Torpaq komissarı, Ərzaq komissarı, Dövlət Plan Komissiyasının sədri və s. vəzifələrdə işləmişdir. 266, 267

Byukenen, Corc [George Buchanan; 1854-1924]: İngilis diplomatı. Britaniyanın Rusiyada (1910-1918) və İtaliyada (1919-1921) səfiri olmuşdur. 491, 608

Cabbar Həsən oğlu (Molla Cabbar Kərbəlayı Həsən oğlu): İrəvan qəzasının Axaraçıq kəndinin sakini. 237

Cabbarov: Qəbristan qəzası pristavının müavini. 629

Cabbarov, Bağır: bax. Cabbarzadə, Bağır.

Cabbarzadə, Bağır (1894-1951): Azərbaycan aktyoru. 409

Cabbarzadə, Cəfər (yaxud Cəfər Cabbarlı; 1899-1934): Azərbaycanın məşhur dramaturqu, şairi və teatr rejissoru. Cümhuriyyət dövründə Qafqaz Türk Tələbələri Mərkəzi Komitəsinin üzvü, Parlamentin türkcə stenoqrafı olmuşdur. 73, 567

Calalyans: Eçmiyədzin qəzasının komissarı. 132

Camalbəyov, Qasım bəy (1881-1938): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycanın müxtəlif yerlərində müəllimlik etmişdir. “Hümmət” partiyasının üzvü idi. Azərbaycan Parlamentinin üzvü olmuşdur. 2, 139

Cankarova, Liza (yaxud Cankorova): bax. Nağıyeva, Yelizaveta Qriqoryevna.

Cavanşir, Behbud xan (1886-1921): Azərbaycanın dövlət xadimi. Almaniyada Frayberq Dağ-Mədən Akademiyasını bitirmişdir. Azərbaycan Cümhuriyyəti Hökumətində Daxili İşlər naziri, Ticarət və Sənaye naziri kimi vəzifələr tutmuşdur. İstanbulda erməni terrorçusu Torlakyan tərəfindən odlu silahla vurularaq öldürülmüşdür. 385

Cəbəsoy, Əli Fuad (1882-1968): Türkiyənin hərbi və siyasi xadimi. Osmanlı və Türkiyə ordusunun müxtəlif hərbi hissələrinin komandiri, Türkiyə Böyük Millət Məclisinin üzvü (1920-1927-ci və 1931-1960-cı illərdə) və Sədri (1948-ci ildə), İctimai İşlər (1939-1943) və Nəqliyyat (1943-1946) naziri olmuşdur. 91, 490

Cəbibəy Məhəbba oğlu: Novo-Bayəzid sancağının Başkənd kəndinin sakini. 237

Cəbrayıl Mollaqulu oğlu: Xırda İstiqraz və Əmanət Cəmiyyətləri İttifaqının Şura üzvlüyünə namizəd. 319

Cəbrayıl Saleh oğlu: Maştağalı uşaq. 44

Cəfərov, Ağabala (Kərbəlayı Ağabala): gəmi kapitanı. 102

Cəfərov, Hadi (Hacı Hadi): Bakı sakini; İçərişəhərdə yaşamışdır. 79

Cəfərov, Mehdi: tacir. 356

Cəfərov, Məmməd (yaxud Məhəmməd) Yusif (1885-1938): Azərbaycanın dövlət xadimi. Ali hüquq təhsili almışdır. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti dövründə müxtəlif tarixlərdə Sənaye və Ticarət naziri, Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi və Xarici İşlər naziri olmuşdur. 147, 178, 254, 263

Cəfərov, Möhsün (Möhsün Sənani; 1900-1981): Azərbaycan aktyoru. Azərbaycan SSR-in xalq artisti. Tiflisdə anadan olmuşdur. 410, 563





Cəlal oğlu: Aleksandropol qəzasının (Qərbi Azərbaycan) sakini. 253

Cəlalyans, Asan: Qars vilayətində məmur olmuşdur. 472

Cəlil Abbas oğlu (Məşhədi Cəlil Kərbəlayı Abbas oğlu): Gəncədəki İrəvan qaçqınlarının vəkili. 645

Cəmil əl-Midfai (1890-1958): Osmanlı ordusunda xidmət etmiş, sonra türklərə qarşı üsyan edən ərəb millətçilərinin tərəfinə keçmişdir. 1930-cu illərdən sonra dəfələrlə İraq Baş naziri olmuşdur. 444

Ciovani: pəhləvan. 109, 159, 245, 409, 462

Cizim Kamil qızı: Gəncədəki Ərzurum qaçqınlarından. 347

Cövdət: Osmanlı dövləti ordusunun 13-cü korpusunun komandiri; miralay (polkovnik). 91

Cövdətzadə, Hikmət (1893-1945): Türkiyəli türkoloq; bir müddət Batumda və Peterburqda yaşamış və işləmişdir. 595

Cüneyd xan (Məhəmməd-Qurban Sərdar; 1857-1938): Xarəzm və Türkmənistanda Basmaçılar hərəkatının başçılarından olmuşdur. 1918-1920-ci illərdə Xarəzm dövlətini idarə etmişdir. 341

Çariinski: Ticarət, Sənaye və Ərzaq Nazirliyində, Əmək Nazirliyində işləmiş; Baş Fabrik müfəttişi dəftərxanasının kargüzarı olmuşdur. 217

Çaykovski, Nikolay Vasilyeviç (1851-1926): Rus inqilabçı. Sankt-Peterburq Universitetini bitirmişdir. Sosialist İnqilabçılar Partiyasına qoşulmuşdur. 1874-1907-ci illərdə Amerika və Avropada yaşamışdır. Bolşeviklərin hakimiyyəti ələ keçirməsinə etiraz etmiş, Ümumrusiya Müvəqqəti Hökumətinin üzvü, Şimal Vilayəti Müvəqqəti Hökumətinin sədri olmuşdur. 85

Çexovski, Nikolay Moiseyeviç (1884-1938): Ukraynanın hərbi xadimi. 1918-ci ildə Kiyevin komendantı, 1919-1921-ci illərdə Ukraynanın Qafqazda (Tiflisdə) hərbi nümayəndəsi olmuşdur. 179, 263

Çeloqaya (Knyaz Çeloqaya): Xırda İstiqraz və Əmanət Cəmiyyətləri İttifaqının Şura üzvü. 319

Çerbaşyan: Ermənistan Xarici İşlər Nazirliyi kargüzarı. 286, 287

Çermoyev, Əbdülməcid Tapa (1882-1936): Şimali Qafqaz dağlılarının siyasi xadimi, azadlıq hərəkatı liderlərindən biri, milliyətcə çeçendir. Birinci Dünya müharibəsi illərində “Vəhşi diviziya”nın çeçen alayında xidmət etmişdir. Şimali Qafqaz Dağlı Xalqları İttifaqının qurucularından biri və Dağlılar Respublikasının başçısı olmuşdur. 449

Çernyavski, Andrey Qavriloviç (1867-1937): Rusiyanın dövlət xadimi. Bir neçə quberniyada, o cümlədən Tiflis quberniyasında (1911-1914) qubernator olmuşdur. 521

Çernyayevski, Aleksey Osipoviç (1840-1894): maarifçi, pedaqoq. Şamaxıda doğulmuş, Azərbaycanda və Azərbaycandan kənarda təhsil sistemində çalışmış, Qori Seminariyasının Azərbaycan şöbəsinin müfəttişi olmuşdur. “Vətən dili” dərsliyinin (II hissəsi Səfərəli bəy Vəlibəyovla birgə) müəllifidir. 13

Çxeidze, Nikolay Semyonoviç (1864-1926): Rusiyanın və Gürcüstanın siyasi xadimi. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Zaqafqaziya Seyminin və Gürcüstan Müəssislər Məclisinin sədri olmuşdur. Gürcüstan tərəfindən Paris Sülh Konfransında iştirak edən nümayəndə heyətinin sədri olmuşdur. Gürcüstanın sovetləşməsindən sonra mühacirətə getmişdir. 224

Çiçerin, Georgi Vasilyeviç (1872-1936): Rusiyanın siyasi xadimi və diplomatı. 1918-1923-cü illərdə Rusiyanın, 1923-1930-cu illərdə SSRİ-nin Xarici İşlər xalq komissarı olmuşdur. 226, 341

Çingiz: Xalınsk (Sürməli qəzası) müvəkkili. 557

Çingiz xan (1162-1227): Monqol sərkərdəsi və Monqol imperiyasının banisi. Tarixin yetişdirdiyi ən böyük sərkərdələrdən biri olmuşdur. 22

Çokayev, Mustafa (yaxud Mustafa Çokay; 1890-1941): Qazax ictimai-siyasi xadimi. Türküstanın birliyi və müstəqilliyi uğrunda mübarizə aparmışdır. 341, 342, 609, 610

Çörçill, Uinston [Winston Churchill; 1874-1965]: Britaniyanın görkəmli dövlət xadimi. 417, 636

D'Annunsio, Qabriele [Gabriele D'Annunzio; 1863-1938]: İtaliyanın siyasi və hərbi xadimi; eyni zamanda şair, yazıçı və dramaturq. 1919-1920-ci illərdə, tanınmayan Fiume Respublikasının diktatoru olmuşdur. 36, 337, 637

Dadaşov, Əliislam: Azərbaycan aktyoru. 409

Dadaşov, Yusif Hacıağa oğlu (1870-1918): Azərbaycanlı milyonçu və xeyriyyəçi; gəmiçi. Avropada təhsil almışdır. Mart soyqırımı əsnasında erməni daşnakları tərəfindən qətl edilmişdir. 285, 299

Dallolio, Alfredo [Alfredo Dallolio; 1853-1952]: İtalyan generalı. 556

Damad Fərid paşa (1853-1923): Türkiyənin siyasi xadimi. 4 mart – 30 sentyabr 1919-cu il və 5 aprel – 17 oktyabr 1920-ci il tarixlərində Baş nazir olmuşdur. 117, 169, 365, 366, 544

Damad Şərif paşa (1873-1958): Osmanlı dövlət xadimi. Daxili İşlər naziri olmuşdur. 366, 367

Darablı, Rza (yaxud Rza Darablinski, Rza Hüseynov; 1883-1942): Azərbaycanın teatr aktyoru. "Nicat", "Səfa", "Hacıbəyov qardaşları müdiriyyəti" truppalarında çıxış etmişdir. Moskvada teatr texnikumunu bitirmişdir. 409

Darvazi, Məhəmməd Vəli xan (1888-1933): Əfqanıstan diplomatı. 1919-1933-cü illərdə, Əfqanıstanın xarici dövlətlərlə diplomatik əlaqələr təsis etmək məqsədi ilə Rusiya, Fransa, Amerika, İngiltərə və başqa ölkələrə göndərilən səlahiyyətli heyətinin rəhbəri olmuşdur. 1922-1924-cü illərdə Əfqanıstanın Xarici İşlər naziri vəzifəsini tutmuşdur. 249, 391

Daşqula: "Müsavat"ın Boradigah şöbəsinin sədri. 240

Davud Peyğəmbər. 215

De Robek, Con [John de Robeck; 1862-1928]: Britaniya admiralı. 268, 576, 595

Delli: kapitan; ingilis hərbi heyəti rəisi. 532

Delli, Edmund L.: ABŞ hərbçisi; polkovnik, mühəndis. 455, 456

Delviq, Sergey Nikolayeviç (1866-1944): Rusiya və Ukraynanın hərbi xadimi; general-leytenant. Sülh müzakirələri üçün Polşaya göndərilən Ukrayna nümayəndə heyətinin rəhbəri (1919), Ukraynanın Rumıniyadakı səlahiyyətli nümayəndəsi (1919-1921) olmuşdur. Mühacirətə getmişdir. 251

Denikin, Anton İvanoviç (1872-1947): Rusiyanın hərbi xadimi, general-leytenant. Ağ qvardiyanın rəhbərlərindən olmuşdur. Birinci Dünya müharibəsində Qərb cəbhəsinin (may-iyul 1917) və Cənub-qərb cəbhəsinin (avqust 1917), Rusiyada Vətəndaş müharibəsi illərində Könüllü ordunun (aprel 1918 – yanvar 1919) və Cənubi Rusiya Silahlı Qüvvələrinin (yanvar 1919 – aprel 1920) komandiri olmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 4, 5, 18, 34, 55, 60, 61, 85, 86, 87, 110, 111, 112, 113, 114, 142, 166, 191, 192, 210, 211, 224, 225, 226, 227, 251, 267, 279, 280, 281, 296, 313, 315, 316, 330, 331, 337, 338, 343, 345, 390, 393, 395, 440, 444, 448, 465, 467, 490, 494, 495, 519, 521, 522, 524, 547, 574, 575, 576, 598, 599, 606, 607, 611, 616, 617, 634, 635, 646, 647, 649

D'Esperi, Franşe [Franchet d'Espèrey; 1856-1942]: Fransanın siyasi və hərbi xadimi, marşal. Cənubi Rusiyada Fransanın Ali komissarı olmuşdur. 86, 196, 234, 314

Dilbazi, Səyalı xanım: Qazax ali-ibtidai





məktəbinin şagirdi, Qazax Mütəəllimlər Cəmiyyətinin kassiri. 432

Diləmrə, Saim Əli (1880-1954): Türk doktoru, liqvisti və siyasətçisi. 615

Dirmin, İvan: Tağıyev fabrikində Emalatxana Komissiyasının üzvü. 322

Dofrans: Fransız diplomatı. 231

Dostəli. 621

Dro: bax. Kanayan, Drastamat.

Duasan, Vrayer. 198

Dudarov, Səfər (1888-1920): Dağıstan inqilabçısı; milliyyətcə osetin. Vladiqafqazda milis komissarı olmuş, bir müddət Azərbaycanda işləmiş, Dağıstanda Denikin əleyhinə qiyam başlayanda oraya qayıtmış, Şimali Qafqaz və Dağıstan Müdafiə Şurasının üzvü olmuşdur. 1920-ci ilin sentyabrında Dağıstanda Sovet hökuməti əleyhinə başlayan üsyanı yatırmağa çalışanlar arasında olan Dudarov üsyançılar tərəfindən əsir götürülmüş və 30 oktyabrda öldürülmüşdür. 6, 25

Dursun Osman oğlu: Türk əsiri. 533

Dutov, Aleksandr İliç (1879-1921): Rusiyanın hərbi xadimi; general-leytenant. Ağqvardiyaçılar hərəkatının iştirakçısı, Orenburq kazaklarının atamanı olmuşdur. 191, 550

Eberhardt, Valter fon [Walter von Eberhardt; 1862-1944]: Almaniyanın hərbi xadimi; general-leytenant. Pribaltikada Rüdiger fon der Qoltsu əvəz etmişdir. 336, 364, 520

Ebert, Fridrix [Friedrich Ebert; 1871-1925]: Almaniyanın siyasi xadimi; sosial demokrat. 1918-ci ilin noyabrından 1919-cu ilin fevralına qədər Almaniyanın Baş naziri, 1919-cu ilin fevralından 1925-ci ilin fevralına qədər Almaniya Prezidenti olmuşdur. 229, 520

Edison, Tomas [Thomas Edison; 1847-1931]: Amerikalı mühəndis və ixtiraçı. 9

Elbakidze, Arkadi (1879-1919): Gürcü bolşeviki; general Baratova sui-qəsd etmişdir. 647

Erdeli, İvan Georgiyeviç (1870-1939): Rusiyanın hərbi xadimi, general. Könüllü ordunun qurucularından olmuşdur. 1919-cu ilin yanvarından Zaqafqaziya və Şimali Qafqazda fəaliyyət göstərmişdir. 37, 55, 61, 210, 252

Eristov, Əli bəy: Bakı Nahiyə Məhkəməsinin prokuroru olmuşdur. 374

Erzberqer, Mattias [Matthias Erzberger; 1875-1921]: Alman yazıçısı və siyasətçisi. Birinci Dünya müharibəsi sonunda atəşkəs müqaviləsinin imzalanması üçün Almaniya tərəfindən yaradılan komissiyanın başçısı təyin olunmuşdu. Daha sonra Veymar Təsisçilər Məclisinin üzvü olmuş və Maliyyə naziri vəzifəsini tutmuşdur. Sui-qəsd nəticəsində öldürülmüşdür. 97

Eynullazadə, Qulaməli: Tağıyev fabrikində Emalatxana Komissiyasının üzvü. 322, 452

Eyşir: Amerika hökumətinə Ermənistan haqqında raport hazırlamışdır. 341

Ə. H.: bax. Qaraağazadə, Əhməd Həmdi.

Əbdülbaqi: Bakıda, qaçqınları mənzillə təmin edən heyətin üzvü olmuşdur. 560

Əbdülcəmil: bax. Cəmil əl-Midfai.

Əbdüləhəd xan: Buxara əmiri. 568

Əbdülhaq Hamid: bax. Tarhan, Əbdülhaq Hamid.

Əbdülhəmid II [1842, 1918]: Osmanlı sultanı; 1876-1909-cu illərdə hakimiyyətdə olmuşdur. 176, 203, 516, 517, 526, 540

Əbdülhəsən (Kərbəlayı Əbdülhəsən): Bakı sakini. 589

Əbdülhüseyn (Məşhədi Əbdülhüseyn). 621

Əbdülhüseyn: Bakılı uşaq. 71

Əbdülməhəmməd Əli oğlu (Hacı Əli oğlu): Xırda İstiqraz və Əmanət Cəmiyyətləri İttifaqının Şura üzvü. 319

Əbdültalıb (Mir Əbdültalıb): Bakı sakini. 589

Əbdürrəhim Yusif oğlu: Sabunçu-Balaxanı fəhlələri iclasının katibi olmuşdur. 295

Əbdürrəhiməfəndizadə, Əhməd əfəndi: Quba şəhərinin əfəndisi (dini xadimi) olmuşdur. 71
Əbdürrəhman Mustafa oğlu: Qaçqın Axısxa türklərindən. 481
Əbdürrəhman Şərəf (1853-1925): Osmanlı tarixçisi, mütəfəkkiri və dövlət xadimi. "Tarixi-Osmani əncüməni məcmuəsi"ndə müxtəlif məqalələri dərc edilmişdir. Türk və islam tarixi haqqında əsərlər yazmışdır. 366
Əbdürrəhmanzadə, İslam: "Müsavat"ın Qalabazarı (Masallı) şöbəsinin katibi. 240
Əbilov, İbrahim (1881-1923): Azərbaycanın siyasi xadimi, inqilabçı və diplomat. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Azərbaycan Sovet Sosialist Respublikasının Türkiyədə fövqəladə və səlahiyyətli səfiri vəzifəsini tutmuşdur. 266, 307, 308, 360, 414, 437, 452, 516, 603, 631
Əbiş Namaz oğlu: Yirvanlı kəndi sakini. 238
Ədlüssəltənə: İranın siyasi xadimi. 446
Əfəndiyev, Ağabəy: Bakıda Balaxanı-Sabunçu bölgəsinin komendantı olmuşdur. 99
Əfəndizadə: Məşixət (Şeyxülislamlıq) İdarəsinin katibi olmuşdur. 80
Əfəndizadə, Abdulla bəy İsmayıl əfəndi oğlu (yaxud Əfəndiyev; 1875-1928): Tiflisdə Aleksandr Müəllimlər İnstitutunu bitirmiş, Azərbaycanın bir sıra şəhərlərində müəllimlik etmiş, Şəkidə müəllim kursları və məktəblər açdırmışdır. Şəki Şəhər Bankının və Şəki Şəhər Dumasının sədri olmuşdur. Şəkidən Azərbaycan Parlamentinə üzv seçilmişdir. 21, 307, 308
Əfəndizadə, Asiya xanım: Qazax Müəllimlər Cəmiyyəti idarə heyətinin üzvü. 432
Əfəndizadə, Əbdülxalıq əfəndi: Şeyxülislamlıq İdarəsinin üzvü olmuşdur. 79, 80, 487, 570, 571
Əfəndizadə, Əhmədağa: Göyçay Müəllimlər İttifaqı idarə heyətinin üzvü. 402
Əfəndizadə, H.: Şəkidən "Azərbaycan" qəzetinə yazmışdır: bax. Əfəndizadə, Həsən.
Əfəndizadə, Həsən: Şəki-Ağdaş Müəllimlər İttifaqının mühasibi olmuşdur. 23, 25
Əfəndizadə, Məbud: Şəki-Ağdaş Müəllimlər İttifaqının sədri olmuşdur. 22
Əfəndizadə, Məhəmməd bəy: Göyçay Müəllimlər İttifaqının sədri. 402
Əfəndizadə, Məhəmməd (Molla Məhəmməd): Qazaxda müəllimlər kursunun müdavimi. 349
Əfəndizadə, Məhəmməd Əmin Ağa Əli oğlu (1897-1968): Şamaxıda anada olmuşdur. Petroqrad Texnologiya İnstitutunda təhsil almışdır. Bakı və Salyan məktəblərində dərs demiş, Şəki Darülmüəlliminin direktoru olmuşdur. Cümhuriyyətdən sonra təhsilini davam etdirmiş, mühəndis və idarəçi kimi mədənçilik və inşaat sahələrində işləmiş, eləcə də Azərbaycan Dövlət Universitetində və Azərbaycan SSR Elmlər Akademiyasında fəaliyyət göstərmişdir. 483, 484
Əfəndizadə, Muxtar (1880-1975): Azərbaycanın elm xadimi, şərqşünas. Maarif sahəsində böyük xidmətləri olmuşdur. Ərəş qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. "Əhrar" partiyasının üzvü idi. 161, 164, 220, 221, 243, 322
Əfəndizadə, Mustafa: Qafqazın müftüsü. 45, 46, 79, 80, 81, 110, 302, 487, 570
Əfəndizadə, Mustafa: Göyçay Müəllimlər İttifaqının xəzinədarı. 402
Əfəndizadə, Rəşid bəy (yaxud Əbdürrəşid bəy; 1863-1942): Azərbaycanın görkəmli maarifçisi. Nuxada anadan olmuş, Qori Seminariyasını və Tiflisdə Aleksandr Müəllimlər İnstitutunu bitirmişdir. Zaqafqaziya Sünni Ruhani İdarəsində işləmiş, Azərbaycanın müxtəlif yerlərində müəllimlik etmişdir. "Uşaq bağçası", "Bəsirətül-ətfal" dərsliklərinin müəllifidir. Şeir və hekayə də yazmışdır. Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 22, 398
Əfəndizadə, Şəfiqə (1882-1959): Azərbaycan pedaqoqu və publisisti. 398, 428, 450





Əfraşim Alman oğlu: Maştağa kəndi sakini. 212
Əhəd. 621
Əhməd Abuq paşa (1859-1923): Osmanlı dövlət xadimi. Hərbi nazir, Abadlıq naziri olmuşdur. 365, 366
Əhməd Camal paşa (1872-1922): Türkiyənin hərbi və siyasi xadimi; İttihad və Tərəqqi partiyasının liderləri olan üç paşadan biri (digərləri Tələt paşa və Ənvər paşa). Birinci Dünya müharibəsində Suriya-Fələstin cəbhəsinin baş komandanı olmuşdur. Erməni suiqəsdçi tərəfindən Tiflisdə şəhid edilmişdir. 167
Əhməd Cövdət: bax. Pepinov, Əhməd bəy.
Əhməd Əsəd oğlu: Xırda İstiqraz və Əmanət Cəmiyyətləri İttifaqının İdarə üzvü. 319
Əhməd Həmdi: bax. Qaraağazadə, Əhməd Həmdi.
Əhməd Məhəmməd oğlu (Mirzə Əhməd Mirzə Məhəmməd oğlu): Xaçmazın Mədəni kəndinin sakini. 71
Əhməd Rza bəy (1858-1930): Osmanlının siyasi xadimi. İttihad və Tərəqqi cəmiyyətinin liderlərindən biri olmuşdur. Vəhdəti-Milliyyə cəmiyyətinin qurucusu idi. 1908-1912-ci illərdə Osmanlı Məclisi-Məbusanının sədri vəzifəsini tutmuşdur. Bir müddət Avropada (Fransada, İsveçrədə, Belçikada) yaşamışdır. 58, 169, 252
Əhmədov, Əsədulla Əhməd oğlu (1867-1941): Azərbaycanın ictimai-siyasi xadimi, xeyriyyəçi. Nəşri-Maarif Cəmiyyətinin təsisçilərindən biri idi. Bakı Bələdiyyə Məclisinin, Azərbaycan Cümhuriyyəti Parlamentinin və "Müsavat" partiyasının üzvü olmuşdur. 265, 307, 320
Əhmədov, Mustafa: pəhləvan. 1, 53, 137
Əhmədov, Sarif: Tiflisdə Azərbaycan teatr truppasının üzvü olmuşdur. 564
Əkbər. 621
Əkrəm Xeyri: bax. Üstündağ, Əkrəm Xeyri.
Ələkbər əfəndi: Şəkidə müəllim olmuşdur. 22
Ələkbər İbrahim oğlu (Məşhədi Ələkbər): Aralıq dairəsi müvəkkili. 558
Ələkbərov, Əbülhəsən. 621
Ələkbərzadə, Ələsgər: Tabaqçılar İttifaqının üzvü. 182
Əli: dənizçi, kapitan; "Azərbaycan" qəzetində yazısı nəşr olunmuşdur. 427
Əli Ağacan oğlu: Bibiheybətdə fəhlə olmuşdur. 505
Əli bəy: həbsxana müdiri. 281
Əli İbrahim oğlu: İrəvan quberniyası Novo-Bayəzid qəzası Başkənd kəndinin nümayəndəsi. 237
Əli Qalib bəy (1871-1932): Osmanlı dövlətinin siyasi xadimi. 1912-ci ildə Məclisi-Məbusan (Parlament) üzvü olmuşdur. 1919-cu ildə Əlazığ valise təyin edilmişdir. Türkiyədən sürgün edilmişdir. 89
Əli Manaf oğlu: milis. 182
Əli Nüsrət bəy: bax. Lordkipanidze, Əli Nüsrət bəy.
Əli Rəşad bəy (1877-1929): Türk alimi və maarif xadimi. Məktəb müdiri, İstanbul Vilayəti Maarif müdiri və Maarif Nazirliyi müstəşarı olmuşdur. 144
Əli Rza paşa (1860-1932): Osmanlı dövlət xadimi. "Düzdaban Əli Rza paşa" adıyla tanınmışdır. 1908-ci ildə Hərbi nazir, 1909 və 1918-ci illərdə Bəhriyyə naziri, 1919-1920-ci illərdə Baş nazir, 1922-ci ildə Daxili İşlər naziri olmuşdur. 168, 186, 365, 366, 367
Əli Şami oğlu: Binəqədidə fəhlə olmuşdur. 20
Əli Yusif: bax. Yusifzadə, Əli.
Əliabbas. 621
Əliabbaszadə, Abbasqulu: "Azərbaycan" qəzetinə Salyandan yazmışdır. 562
Əliağa. 322
Əlibəy Abbas oğlu: Binəqədidə mədəndə işləmişdir. 347
Əlibəyov: Tiflisdə Azərbaycan teatr truppasının üzvü olmuşdur. 564

Əlibəyov, Mustafa bəy (1872-1945): Azərbaycan ziyalısı, ictimai xadim. "Əhrar" partiyasının üzvü idi. 183, 264, 319, 322, 431, 470, 475, 506, 559
Əlibəyov, Şıxəli: Şamaxı sakini. 72
Əliəkbər Murad oğlu. 621
Əliəsgərov, Əmiraslan. 621
Əlif. C.: "Azərbaycan" qəzetinə Gəncədən yazmışdır. 48
Əlif. Əlif.zadə: "Azərbaycan" qəzetində imza; Kürdəmirdən, Şamaxıdan yazmışdır. 324, 563
Əliheydər Məhəmmədyar oğlu: milis. 182
Əlihəsənov, Ağamirzə: "İttihad" Cəmiyyətinin sədri. 476
Əlixan Talış: "Müsavat"ın Boradigah şöbəsinin katibi. 240
Əliisgəndərzadə, Səməd bəy: mühəndis; "Müsavat" üzvü. Balaxanı-Sabunçu polismeysteri olmuşdur. 404
Əlikərimov, Nasir: "Müsavat" üzvü. 645
Əlikərimzadə, Nasir: bax. Əlikərimov, Nasir.
Əliqulu Göyçə oğlu (Kərbəlayı Göyçə oğlu): Bakıda, saxta pul kəsməkdə şübhəli bilinərək tutulmuşdur. 100
Əliquluzadə, Haşım: Tağıyev fabrikində Emalatxana Komissiyasının üzvü. 322, 452
Əlimərdan: Bakı sakini. 589
Əlirza Mirzə oğlu: Bakılı uşaq. 103
Əlişbəyov, Mustafa bəy: "Müsavat"ın Şuşadakı nümayəndəsi olmuşdur. 127
Əliteymur Kərim oğlu: Şamaxı sakini. 510
Əliverdibəyov, Qara bəy (1879-1929): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 71
Əliverdili, Qara bəy: bax. Əliverdibəyov, Qara bəy.
Əliyev, Abbasəli. 137
Əliyev, Əbdülxalıq. 621
Əliyev, Əhməd (Hacı Əhməd): Gəncədə Kəndçi-Əkinçi İttifaqı Mərkəzi Komitəsinin üzvü. 296, 483
Əliyev, Əlibala: Göyçay pristavının müavini, sonra Göyçay pristavı olmuşdur. 629
Əliyev, Haşım Bədəl oğlu (1892-1919): bolşevik, "Hümmət" üzvü. Bakıda Mərkəzi Fəhlə Konfransı sədrinin müavini olmuşdur. 4, 348
Levin, Aleksandr Mixayloviç (1861-1932): həkim; Sankt-Peterburqda anadan olmuş, bir sıra yerlərdə (o cümlədən Almaniyada, Hindistanda) işləmişdir. 1916-cı ildən Bakı Şəhər Xəstəxanasının həkimi olmuşdur. 326, 327, 353, 378

Levin, B. L.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 50, 104, 185, 242, 297, 352, 405, 459, 624

Leyla xanım: Azərbaycan aktrisası. 409

Leyla Qasım qızı: İrəvan qaçqınlarından yetim qız. 644

Lətifbəyov, Rza (Rza Zaki): Azərbaycanlı pedaqoq və yazıçı. Bakı, Gəncə, Şəki, Göyçay və Batumda müxtəlif təhsil ocaqlarında ana dili və şəriətdən dərs demişdir. Bədii yaradıcılıqla da məşğul olmuş, xüsusilə tarixi mövzularda əsərlər yazmışdır. 537

Lianozov, Stepan Georgiyeviç (1872-1949): Erməni əsilli neft sənayeçisi. 1907-ci ildə “G. M. Lianozov və oğulları” adlı neft şirkətini qurmuşdu. 1919-cu ildə Şimal-Qərb Hökumətinin (Rusiya) tərkibində Baş nazir, Xarici İşlər naziri və Maliyyə naziri olmuşdur. 168

Liddell, Skotland [Scotland Liddell; 1885-1972]: İngilis hərbi jurnalisti. Birinci Dünya müharibəsi dövründə Bakıdan və Tiflisdən reportajlar hazırlamışdır. Tiflisdə ingilis dilində nəşr edilən “Corcian meyl” [The Georgian mail] qəzetinin baş redaktoru olmuşdur. 386, 439, 440

Livbien: Münhen bolşeviklərinin lideri. 166

Liven, Anatoli Pavloviç (1872-1937): Ağqvardiyaçılar hərəkatının və Latviyanın müstəqilliyi uğrunda hərəkatın iştirakçısı, knyaz, polkovnik. 35

Lizina, Nataliya: aktrisa. 409

Lloyd Corc, Devid [David Lloyd George; 1863-1945]: Britaniyalı siyasətçi. 1905-1908-ci illərdə Ticarət naziri, 1908-1915-ci illərdə Maliyyə naziri, 1915-1916-cı illərdə Hərbi nazir olmuşdur. 6 dekabr 1916 – 19 oktyabr 1922 tarixləri arasında Britaniyanın Baş Naziri vəzifəsini tutmuşdur. 4, 35, 58, 59, 84, 86, 141, 173, 228, 231, 232, 416, 417, 467, 468, 492, 635, 636, 637

Lodj, Henri Kebot [Henry Cabot Lodge, 1850-1924]: Amerikanın siyasi xadimi; 1895-1924-cü illərdə senator. Daha çox xarici siyasət məsələləri ilə məşğul olmuşdur. 36, 84

Lonq, Volter [Walter Long; 1854-1924]: Britaniyanın siyasi xadimi. 1919-1921-ci illərdə Britaniya Admirallığının (Hərbi-Dənizçilik İdarəsinin) rəhbəri idi. 417

Lonqe, Jan [Jean Longuet; 1876-1938]: Fransız sosialisti. 84

Lordkipanidze: Gürcüstan Xarici İşlər Nazirliyi idarəsinin direktoru. 268

Lordkipanidze, Əhməd Avni paşa (1878-1934): Türkiyənin dövlət xadimi. 1919-cu ildə Bəhriyyə (Donanma) naziri olmuşdur. 403, 407

Lordkipanidze, Əli Nüsrət bəy: Türkiyə Vəqflər Nazirliyinin vitse-direktoru. 403, 616

Lordkipanidze, İvan Nestoroviç (1889-1937): Gürcüstanın siyasi xadimi. Tibb təhsili almışdır. Gürcüstan Demokratik Respublikası Hökumətində Ədliyyə naziri vəzifəsini icra etmiş, daha sonra Nəqliyyat naziri olmuşdur. 485, 486

Lordkipanidze, Qriqori Spiridonoviç (1881-1937): Gürcüstanın siyasi xadimi; yazıçı. Müxtəlif vaxtlarda Gürcüstan Demokratik Respublikasının Təhsil naziri və Hərbi naziri olmuşdur. 486

Lukomski, Aleksandr Sergeyeviç (1868-1939): Rusiyanın hərbi xadimi, general. Ağqvardiyaçılar hərəkatının liderlərindən və Könüllü ordunun qurucularından biri olmuşdur. Ağqvardiyaçıların Vətəndaş müharibəsində məğlubiyyətindən sonra mühacirətə getmişdir. 521

Lurye, Maksim İsayeviç (1890-1983): Bakıda fəaliyyət göstərmiş həkim. 24, 49, 76, 104, 133, 184, 213, 241, 297, 325, 351, 377, 405, 433, 458, 565, 592, 624





Lvov, Georgi Yevgenyeviç (1861-1925): Rusiyanın siyasi xadimi; knyaz. 1917-ci ilin mart-iyul aylarında Müvəqqəti Hökumətin başçısı olmuşdur. Paris Sülh Konfransına göndərilən Rusiya heyətinin tərbində olmuşdur. 84

M. B.: “Azərbaycan” qəzetində imza; bax. Mirbağırzadə, Mirabbas.

M. N.: Çadrovı (Mirzəağa Əliyev) küçəsində ev satan Bakı sakini. 564

M. Y. V.: Bakıda mürəbbiyəlik qulluğu axtaran xanım. 564, 592

Mahmud II (1785-1839): Osmanlı sultanı; 1808-1839-cu illərdə hakimiyyətdə olmuşdur. 261, 271

Mahmud bəy: Şəki dördüncü sahə pristavı. 532

Mahmud Xudaverdi oğlu. 564

Mahmudbəyov: Cəbrayıl qəzasının rəisi (qaimməqamı) olmuşdur. 507

Mahmudbəyov, Mahmud bəy (1863-1923): Azərbaycanın görkəmli pedaqoqu. Qori Seminariyasını bitirmişdir. Azərbaycanın müxtəlif yerlərində müəllim və məktəb müdiri işləmişdir. “Rəhbər” jurnalının redaktoru olmuşdur. “Yeni əlifba kitabçası”, “Birinci il: müsəvvər türk əlifbası və ilk qiraət” (1918-ci ilə qədər 14 çap); “Yeni məktəb” (Abbas Səhhətlə birgə; 1918-ci ilə qədər 8 çap); “Türk ədəbiyyatına ilk qədəm” (Abbas Səhhətlə birgə); “Müntəxəbat: türk ədiblərindən nümunələr” (Abdulla Şaiqlə birgə); “Üçüncü il” kimi dərsliklərin müəllifidir. 13, 500, 513

Mahmudov, Əsədulla: Xeyriyyə Cəmiyyətinin üzvü. 430

Mahmudov, Həmid: Azərbaycan teatrında suflyor olmuşdur. 410

Mahmudov, İsmayıl: Bakıda, Qubernski küçədə (indiki Nizami küçəsi) yerləşən “İslamiyyə” restoranını işlətmişdir. 326

Mahmudzadə, İbrahim: Tabaqçılar İttifaqının üzvü. 182

Mahmudzadə, Kərim: Müsəlman dəmiryol xidmətçiləri yığıncağının sədri. 19

Maxno, Nestor İvanoviç (1888-1934): Ukraynalı anarxist-kommunist. 490, 522, 606

Makalutiya. 649

Makarov: pəhləvan. 189, 217, 273, 381, 436, 515, 569

Makferson, Yan [Ian Macpherson; 1880-1937]: Britaniyanın siyasi xadimi. 1919-1920-ci illərdə İrlandiya Baş katibi idi. 417

Makinski, Abbasəli bəy (1888-1938): Azərbaycanlı hüquqşünas. Kiyev Universitetinin Hüquq fakültəsində təhsil almışdır. Cümhuriyyət dövründə müxtəlif dövlət qurumlarında hüquq məsləhətçisi və xüsusi tapşırıqlar üzrə məmur kimi fəaliyyət göstərmiş, həmçinin Ticarət, Sənaye və Ərzaq Nazirliyi Dəftərxanasının müdiri olmuşdur. 1938-ci ildə güllələnmişdir. 21, 46, 243, 270, 298, 353, 434, 651

Makinski, Əli xan: zabit. 15

Makinski, Teymur bəy (1874-?): Azərbaycanın dövlət xadimi. Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının, Azərbaycan Milli Şurasının və Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Bir müddət Ədliyyə naziri vəzifəsini tutmuş, daha sonra Ermənistan Hökuməti yanında Azərbaycanın diplomatik nümayəndəsi təyin edilmişdir. Cümhuriyyətin süqutundan sonra mühacirətə getmişdir. 211

Maklakov, Vasili Alekseyeviç (1869-1957): Rusiyanın siyasi xadimi. Dövlət Dumasının üzvü olmuşdur. Müvəqqəti Hökumət tərəfindən Parisə səfir təyin edilmiş, fəqət vəzifəsini ifa etməyə başlaya bilməmişdir. Mühacirətə getmişdir. 84, 281

Maksimov, Nikolay Lavrentyeviç (1880-1961): Rusiya və Ukraynanın hərbi xadimi. Rusiya-Yaponiya müharibəsində və Birinci Dünya müharibəsində iştirak etmişdir. 1918-ci ildə Ukrayna dövlətinin Hərbi Donanma Nazirliyində xidmətə başlamış, nazir müavini olmuş, 1918-ci ilin may-noyabr aylarında nazirin səlahiyyətlərini icra etmişdir. 225

Malxazov: bax. Malxazyan.
Malxazyan, Arşak İoanesoviç (yaxud Malxazov, İvanoviç): "Daşnaksutyun" partiyasının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 3, 31, 32, 139
Malıyev: Cavad qəzasında sərhəd bölüyü komandanı olmuşdur. 44, 561
Mallaçı-xan, Bahadır bəy: Azərbaycanın və Dağıstanın ictimai-siyasi xadimi. 1913-cü ildə Bakıda Qafqaz Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri olmuşdur. Dağlılar Respublikası Hökumətində Ticarət və Sənaye naziri vəzifəsini tutmuşdur. 192
Mamontov, Konstantin Konstantinoviç (1869-1920): Rusiyanın hərbi xadimi; general-leytenant. Don ordusunun komandirlərindən olmuşdur. 114, 225, 465, 552, 574
Manafov: Tiflisdə Azərbaycan teatr truppasının üzvü olmuşdur. 564
Manço, Aleksandr İvanoviç (1868 - ?): mühəndis-mexanik. Bakıda neft şirkətlərində, Azərbaycan Cümhuriyyəti Ticarət, Sənaye və Ərzaq Nazirliyində işləmişdir. Birja Komitəsinin, Bakı Dumasının üzvü olmuş, həmçinin bir sıra başqa sahələrdə də ictimai fəaliyyətlə məşğul olmuşdur. 274
Maniu, Yuliu [Iuliu Maniu; 1873-1953]: Rumıniyanın siyasi xadimi. Baş nazir (1928-1930; 1932-1933; 1944); Müdafiə naziri (1930); Maliyyə naziri (1929) olmuşdur. 280, 336
Manvelov, Aram: İrəvan qəzası ermənilərinin rəhbərlərindən olmuşdur. 237
Manvelov, Tiqran: İrəvan qəzası ermənilərinin rəhbərlərindən olmuşdur. 237
Manvelov, Vasik: İrəvan qəzası ermənilərinin rəhbərlərindən olmuşdur. 237
Marşall, Tomas Rayli [Thomas Riley Marshall; 1854-1925]: 1913-1921-ci illərdə ABŞ-ın vitse-prezidenti olmuşdur. 141
Matsieviç, Konstantin Andrianoviç (1873-1942): Ukraynanın dövlət xadimi, diplomat. Rusiya və Antanta nümayəndələri ilə danışıqlarda (1918-1919) Ukrayna heyətinin rəhbəri, Ukrayna Xalq Direktoriyasının Xarici İşlər naziri (1919) olmuşdur. 251
Matsui, Keyşiro [Matsui Keishirō; 1868-1946]: Yaponiyanın dövlət xadimi və diplomatı. Birinci Dünya müharibəsi illərində Yaponiyanın Parisdəki səfiri və Paris Sülh konfransında ölkəsinin səlahiyyətli nümayəndəsi olmuşdur. 443
Mayevski, Vladimir Feofiloviç: Türkiyənin Şərqi Anadoludakı ərazilərində Rusiyanın konsulu olmuşdur. 99
Mazen: general; Denikin qərargahına gələn Fransa heyətinin başçısı. 634
Mdivani, Nikolay Mixayloviç: Bakıda fəaliyyət göstərmiş doktor. 50
Mehdi: gömrük xidmətçisi. 101, 102
Mehdiyev, Hüsü (Hacı Hüsü). 560
Mehmandarov, Səməd bəy (1856-1931): Azərbaycanın hərbi xadimi. Peterburqda hərbi məktəb bitirmiş, Çar Rusiyası ordusunda xidmət etmiş, Rusiya-Yaponiya müharibəsində göstərdiyi şücaətlərə görə mükafatlandırılmış, Birinci Dünya müharibəsində iştirak etmişdir. 1917-ci ilin fevral inqilabından sonra Rusiya ordusundan istefa vermişdir. Cümhuriyyət dövründə Azərbaycanın Hərbi naziri olmuş, ordu quruculuğu sahəsində böyük işlər görmüşdür. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən həbs edilmiş, azadlığa çıxdıqdan sonra müxtəlif vəzifələrdə işləmişdir. 291, 399
Mehrabov: Qubada məmur olmuşdur. 643
Mehrbanu Ağaməli qızı. 402
Meici (1852-1912): Yapon imperatoru; əsl adı Mutsihito idi. 1867-1912-ci illərdə hakimiyyətdə olmuşdur. 579
Melkumyans, N. A.: Bakıda fəaliyyət göstərmiş dəri-zöhrəvi həkimi. 50, 104, 134, 185, 242, 269, 297, 351, 405
Mender: Latviyanın siyasi xadimi; sosialist. 607
Mensdorf: bax. Mensdorf-Puli-Ditrixşteyn.





Mensdorf-Puli-Ditrixşteyn, Albert [Albert Graf von Mensdorff-Pouilly-Dietrichstein; 1861-1945]: Avstriya-Macarıstanın diplomatı. 1904-1914-cü illərdə Böyük Britaniyada səfir olmuşdur. 553
Meriks: Bakı Mərkəzi Həbsxanası rəisinin müavini. 263
Məcnunbəyov, Hüseyn: Dövlət Müfəttişliyi Nazirliyində xüsusi əmrlər məmuru olmuşdur. 301, 329, 355, 381, 409, 435
Mədədzadə, Salamulla: İran maarif cəmiyyəti "Tərəqqi"nin xəzinədarının müavini. 506
Məğfurə xanım (yaxud Mariya Frolovna Yermakova; 1901-1982): Azərbaycan teatr səhnəsinin ilk aktrisalarından biri olmuşdur. Əsl adı "Mariya" olsa da, səhnədə "Məğfurə" adıyla çıxış etmişdir. 409
Məhəmməd. 621
Məhəmməd Ağakərim oğlu: Cırqurd kəndinin sakini. 238
Məhəmməd bəy: Şəkidə müəllim olmuşdur. 22
Məhəmməd əfəndi: Azərbaycan ordusunun Şəkidəki zabitlərindən olmuşdur. 22
Məhəmməd Haşım Mirzə: Qacar şahzadəsi; İranın siyasi xadimi. 446
Məhəmməd İsmayıl xan: Cənubi Azərbaycanda tayfa başçısı. 395
Məhəmməd Məhəmməd oğlu: Bakı sakini. 480
Məhəmməd Peyğəmbər. 207, 208, 625
Məhəmməd Şükür oğlu: Küçəkənd sakini. 237
Məhəmmədbağır Cavad oğlu. 621
Məhəmmədbəyov, Əliş: Gəncədə Kəndçi-Əkinçi İttifaqı Mərkəzi Komitəsinin sədri. 483
Məhəmmədbəyov, Heybətqulu (yaxud Heybətqulu Məhəmmədbəyli; Məmmədbəyov; 1888-1937): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 1919-cu ilin dekabrından 1920-ci ilin aprel ayına qədər Dövlət Nəzarəti naziri vəzifəsini tutmuşdur. Sovet rejimi tərəfindən həbs edilmiş və güllələnmişdir. 308
Məhəmmədəli Atabala oğlu. 402
Məhəmmədəli Malandar oğlu: İrəvan quberniyası Eçmiyədzin qəzası Tixt kəndinin sakini. 237
Məhəmmədəli Mütəllib oğlu: Balaxanada fəhlə. 451
Məhəmmədəlizadə, Möhsün (Hacı Möhsün). 620
Məhəmmədi-Sadis: bax. Məhməd VI.
Məhəmmədhüseyn: Bakı sakini. 71
Məhəmmədhüseyn Nəsir oğlu (Hacı Məhəmmədhüseyn Kərbəlayı Nəsir oğlu): kababçı. 240
Məhəmmədov: gəmi komandanı. 531
Məhəmmədov: Tiflisdə Azərbaycan teatr truppasının üzvü olmuşdur. 564
Məhəmmədov, Abış: Gəncədə Kəndçi-Əkinçi İttifaqının Mərkəzi Komitəsinin sədri. 295
Məhəmmədov, Ağabala (Məşhədi Ağabala): Bakı sakini; fabrik işçisi. 73
Məhəmmədov, Ağaqəni. 265
Məhəmmədov, Əbucəfər: Dağıstanlı qaçqınlardan; Dərbəndli müəllim. 402
Məhəmmədov, Əsədulla. 621
Məhəmmədov, Qəni: tacir. 356, 379
Məhəmmədyarov, S.: Azərbaycan Cümhuriyyəti Ticarət, Sənaye və Ərzaq Nazirliyində kargüzar müavini, sonra kargüzar olmuşdur. 53
Məhəmmədzadə, Cəmaləddin: Azərbaycan Cümhuriyyəti Parlamenti İdarəsində kargüzar olmuşdur. 461
Məhəmmədzadə, Əbdüləli: "Müsavat" partiyasının Suraxanı şöbəsinin sədri olmuşdur. 20
Məhəmmədzadə, Əbdülvahab: bax. Yurdsevər, Əbdülvahab Məmmədzadə.
Məhəmmədzadə, Əsədulla: "Müsavat"ın Şura üzvü. 73, 375
Məhəmmədzadə, Feyzulla: Qazax Semi-

nariyasında təhsil almışdır. 68, 432
Məhəmmədzadə, Haşım: Şəki-Ağdaş Müəllimlər İttifaqının katibi olmuşdur. 22
Məhəmmədzadə, Hüseyn: "Müsavat"ın Sabunçu şöbəsinin üzvü. 47
Məhəmmədzadə, Qurban: Tabaqçılar İttifaqının üzvü. 182
Məhəmmədzadə, Mahmud (Mirzə Mahmud): İran maarif cəmiyyəti "Tərəqqi"nin idarə heyəti sədrinin müavini. 506
Məhəmmədzadə, Mirzəağa (Hacı Mirzəağa): Bakı sakini. 589
Məhəmmədzadə, Mirzəbala (1898-1959): Azərbaycanın ictimai-siyasi xadimi, publisist və dramaturq. 1924-cü ildən mühacirətdə yaşamışdır. 41, 43, 155, 321, 348, 375
Məhəmmədzadə, Mustafa: Qazax Mütəəllimlər Cəmiyyəti idarə heyətinin üzvü. 432
Məhməd VI (1861-1926): Osmanlı İmperiyasının sonuncu sultanı Məhməd Vəhidəddin. Sultan Əbdülməcidin oğlu idi. 3 iyul 1918-ci ildə Osmanlı sultanı olmuş, Türkiyə Böyük Millət Məclisinin monarxiyanı ləğv etdiyi 1 noyabr 1922-ci il tarixinə qədər hakimiyyətdə qalmışdır. Mühacirətdə ölmüşdür. 36, 171, 366
Məhməd Əmin (Soyadı qanunundan sonra "Yurdaqul" soyadını qəbul etmişdir; 1869-1944): Türk şairi. Osmanlı Məclisi-Məbusanının və Türkiyə Böyük Millət Məclisinin üzvü olmuşdur. 425, 426, 543, 567
Məhməd Rifat (Manastırlı; 1851-1907): Türk şair, yazıçı, ədəbiyyatşünası və hərbi xadimi. 567, 598, 627, 650
Məhməd Tələt bəy: bax. Tələt paşa.
Məhməd Tofiq: bax. Biren, Məhməd Tofiq.
Məhməd Vəhib paşa (Kaçı; 1877-1940): Türkiyənin hərbi xadimi; general. Qafqaz İslam Ordusunun da tabe olduğu Şərq Ordular Qrupunun komandanı idi. Türkiyədə soyadı qanunu çıxdıqdan sonra "Kaçı" soyadını almışdır. 253
Məhməd (Məhəmməd) Vəhidəddin: bax. Məhməd VI.
Mələkarayi, Mirzə İbrahim xan: İranın siyasi xadimi. 446
Məlik oğlu: Yirvanlı kəndi sakini. 238
Məlik-Şahnazaryan, Sokrat-bəy: Qarabağda, Vərəndə mahalında silahlı erməni quldur dəstələrinin başçısı olmuşdur. 70
Məlik-Yeqanov, Cavad bəy (1878-1937): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 1919-cu ilin avqustundan 1920-ci ilin aprel ayına qədər Lənkəranın general-qubernatoru olmuşdur. 1930-cu ildə Sovet rejimi tərəfindən həbs edilmiş, 1937-ci ildə güllələnmişdir. 294, 322, 452, 460
Məlikaslanov, Xudadad bəy (1879-1935): Azərbaycanın dövlət xadimi. Peterburqda mühəndislik təhsili almışdır. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti hökumətində Nəqliyyat və Rabitə naziri, Poçt və Teleqraf naziri kimi vəzifələr tutmuşdur. Cümhuriyyətin süqutundan sonra da bir sıra vəzifələrdə işləmişdir. Repressiyaya məruz qalmış və həbs düşərgəsində vəfat etmişdir. 10, 437
Məlikaslanov, Teymur bəy Ağa bəy oğlu (1889-1920): Azərbaycan Dəmiryolu İdarəsinin rəisi olmuşdur. 28, 110
Məlikov, Hənifə xanım: bax. Məlikzadə, Hənifə xanım.
Məlikov, Məsum bəy. 620
Məlikzadə, Hənifə xanım (1856-1929): Azərbaycanın maarif xadimi. Həsən bəy Zərdabinin həyat yoldaşı. Təhsil sistemində bir sıra vəzifələrdə işləmişdir. 530
Məmi. 621
Məmiş. 621
Mərdanov, Mustafa (1894-1968): Azərbaycan aktyoru. Mərənddə anadan olmuş, uşaq yaşda ailəsiylə birgə Tiflisə köçmüşdür. Tiflis Azərbaycan teatr truppasının üzvü olmuşdur. 563, 564





Mərsinli, Məhməd Camal (Kiçik Camal paşa; 1875-1941): Türkiyənin hərbi və siyasi xadimi. 1919-cu ilin oktyabrında Hərbi nazir olmuş, 1920-ci ildə ingilislər tərəfindən Malta adasına sürgün edilmişdir. 366
Məsumov, Məcid: İranlı tacir. 43
Məşhədiağa: Bakı sakini. 589
Məşhədixanım Məlik qızı. 402
Məşhədiqulu. 621
Mixail Aleksandroviç (1878-1918): Rusiya imperatoru III Aleksandrın oğlu, II Nikolayın kiçik qardaşı. 494
Mixaylov: tibb professoru. 49, 104, 184, 213, 269, 325, 377, 434, 511, 539, 593
Mikadze, Vissarion: Bakı qubernatorunun xüsusi işlər məmuru. 289
Mikayılov, Vəli (Kərbəlayı Vəli; 1877-1941): şair, jurnalist, ictimai-siyasi xadim. Milli Şuranın və "Müsavat" partiyasının üzvü. Cümhuriyyət dövründə Hökumət mətbəəsinin müdiri olmuşdur. İrana mühacirətə getmişdir. 73
Mikayılzadə, Vəli (Kərbəlayı Vəli): bax. Mikayılov, Vəli (Kərbəlayı Vəli).
Mikeladze, Aliko (Koroğlu): Gürcü bolşeviki. 648
Milaslı, İsmayıl Haqqı (1869-1948): Türk doktor və ictimai xadim. 615
Miln, Corc [George Milne; 1866-1948]: Britaniyanın hərbi xadimi; feldmarşal. Birinci Dünya müharibəsindən dərhal sonra Balkanlarda və Qara dəniz regionunda Britaniya ordularının baş komandanı olmuşdur. 234, 351, 394
Milner, Alfred [Alfred Milner; 1854-1925]: Britaniyanın dövlət xadimi. Britaniyanın xarici və daxili siyasətinin formalaşmasında böyük rola malik olmuşdur. 495
Milyukov, Pavel Nikolayeviç (1859-1943): Rusiya siyasi xadimi, eyni zamanda tarixçi və publisist. Konstitusion-Demokratik Partiyanın (Kadetlər partiyası) liderlərindən biri idi. Müvəqqəti Hökumətdə (Rusiya) Xarici İşlər naziri olmuşdur. 85
Minorski, Vladimir Fyodoroviç (1877-1966): Rus şərqşünası, tarixçisi və diplomatı. 1903-cü ildə Rusiya Xarici İşlər Nazirliyinin Asiya şöbəsinə daxil olmuş, diplomat kimi İran və Türkiyədə xidmət etmişdir. 168, 186
Mirağa Mirbaba oğlu (Məşhədi Mirbaba). 402
Mirağababa Mirağa oğlu: "Müsavat"ın Boladı şöbəsinin katibi. 240
Mirbabayev, Mirbağır Mirabbas oğlu: Ermənistan Parlamentinin üzvü olmuşdur. 15, 94
Mirbabayev, Miribrahim (Hacı Miribrahim). 240
Mirbabayev, Miryusif Mirabbas oğlu (1889-1951): Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəliyinin katibi. Sovet dövründə Ermənistanda və Azərbaycanda müxtəlif vəzifələrdə işləmiş, o cümlədən, pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Elmlər Akademiyasının Dil İnstitutunda işləmiş, bir sıra lüğətlərin tərtibçiləri sırasında olmuş, eyni zamanda "Azərbaycan dilinin erməni dilinə təsiri" mövzusunda dissertasiya müdafiə etmişdir. 95, 286
Mirbağırzadə, Mirabbas: Azərbaycanın publisisti və ictimai xadimi; eyni zamanda İrəvanda və Bakıda kitab ticarəti ilə məşğul olmuşdur. Dövrünün mətbuatında çoxsaylı yazılarla çıxış etmişdir. Əsasən, tarix mövzusunda olmaqla bir neçə kitabın müəllifidir. Başçılıq etdiyi heyət Azərbaycan Cümhuriyyəti Hökumətinin Naxçıvanın problemləri ilə tanış olması və bu problemləri aradan qaldırmaq istiqamətində adımlar atılması baxımından çox önəmli rol oynamışdır. 18, 25, 97, 106
Mircəfərzadə, Axund Mirməhəmmədkərim (1855-1938): Bakı qazısı. 567
Mirələkbər Mirağa oğlu: Ərdəbil sakini. 378
Mirfəttah Musəvi: bax. Musəvi, Mirfəttah.
Miriyev, Abdulla: Azərbaycan aktyoru. 410

Mirkin, A. A.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 105, 185, 242, 298, 352, 405, 459, 511, 539, 624
Mirməsum Mirməhəmməd oğlu: milis. 182
Mironov: Dabrovol ordusu generalı. 88
Mironov, Filipp Kuzmiç (1872-1921): Rusiyanın hərbi xadimi; kazak qoşunları komandiri. Oktyabr inqilabından sonra bolşeviklərə qoşulmuşdur. 1919-cu ilin avqustunda ordu içində qiyam qaldırmış, sonra bağışlanmış və İkinci Süvari ordusunun komandiri olmuşdur. 114
Mirveyis İmamverdi oğlu (Məşhədi Mirveyis): Gəncədə Kəndçi-Əkinçi İttifaqı Mərkəzi Komitəsinin üzvü. 296
Mirzağa. 621
Mirzə Kiçik xan (1880-1921): İranlı inqilabçı və hərbi xadim; Cəngəlilər hərəkatının lideri olmuşdur. 37, 263, 445
Mirzə Murtuza (Hacı Mirzə Murtuza): İranın siyasi xadimi. 446
Mirzə Tahir (Ağayi-Mirzə Tahir): İranın siyasi xadimi. 446
Mirzəağa (Hacı Mirzəağa). 240
Mirzəağa: Bakılı yetim uşaq. 155
Mirzəbəyov: Qaryagində poçtalyon. 237
Mirzəbəyov, Osman: Azərbaycan Dəmiryolları idarəsində mühafizə rəisinin 2-ci müavini olmuşdur. 28, 110
Mirzəcamal, Hüseyn: bax. Mirzəcamalov, Hüseyn.
Mirzəcamalov, Hüseyn bəy Məhəmmədrəfi bəy oğlu (1890-1974): Azərbaycan Cümhuriyyəti Ziraət nazirinin katibi, Parlamentdə Qanun Layihələri şöbəsinin müdiri olmuşdur. Cümhuriyyətin süqutundan sonra maarif sahəsində çalışmış, 1921-1922-ci illərdə Türkiyəyə mühacirətə getmişdir. Türkiyədə "Yanar" soyadını qəbul etmişdir. 153, 238
Mirzəəli İbrahim oğlu: Kalış kəndinin sakini. 253
Mirzəəliyev: Cavad qəzası rəisinin müavinlərindən olmuşdur. 43
Mirzəyev, Rüstəm bəy (1840-1920): Cümhuriyyət dövründə Bakı şəhərinin polismeysteri olmuşdur. 571
Mistiyev: Gürcü sirk artisti; kinto. 542, 569
Molla Cavad oğlu: Yirvanlı kəndi sakini. 238
Molla Əhməd Piri oğlu (Hacı Molla Əhməd Hacı Piri oğlu). 483
Mollasadıqzadə, Həsən (Hacı Şeyx Həsən axund): Şeyxülislamlıq İdarəsinin üzvü olmuşdur. 79, 80, 487, 570, 571
Mollazadə: Tiflisdəki azərbaycanlılardan. 623
Monteqyo, Edvin Semuel [Edwin Samuel Montagu, 1879-1924]: Britaniyalı siyasətçi. 1917-1922-ci illərdə Hindistan İşləri naziri olmuşdur. 491
Motsonelidze: Gürcüstanın siyasi xadimi. 648
Möhsün (Hacı Möhsün). 240
Möhsün Adıgözəl oğlu (Məşhədi Möhsün): Bakı sakini. 589
Möhsünov, Məcid: İran vətəndaşı. 531
Mötəmənülmülk: İranın siyasi xadimi. 445, 446
Mötəzədüddövlə: İranın siyasi xadimi. 446
Muxtar İldırım oğlu: Zəngəzurun Tarovı kəndinin sakini. 39
Muradxanov: Qaradonlu pristavı. 429
Muradov, Sultan bəy Əlipaşa bəy oğlu (1871-1955): Zəngəzurda milli milis dəstəsinin rəisi olmuşdur. 295
Muradzadə, Məhəmməd: Qazax Seminariyasının şagirdi, Qazax Mütəəllimlər Cəmiyyətinin kassiri. 432
Murtuza Yəhya oğlu: Qaradonlu sakini. 291
Musa Kazım əfəndi (1858-1920): İttihad və Tərəqqi Cəmiyyətinin üzvü; 1910-1911 və 1916-1918-ci illərdə Osmanlı şeyxülislamı olmuşdur. 252





Musa Məhəmməd oğlu: Gəncədə Kəndçi-Əkinçi İttifaqı Mərkəzi Komitəsinin üzvü. 296
Musaelyans, Qriqori Aslanoviç (1881-?): Bakıda fəaliyyət göstərmiş həkim. 185, 242, 298, 352, 406, 459, 511, 539, 593
Musazadə, Abdulla: Bakıda, Nikolayevski (indiki İstiqlaliyyət) küçəsində yerləşən "Abarot" çəkməçisinin sahibi. 381
Musazadə, Əziz: Qazaxda müəllimlər kursunda türk dili mühaziräçisi. 349, 350
Musazadə, Qurban. 447
Musazadə, Qurban: Bakıda, "Müsavat" tərəfindən çağırılan müsəlman şagirdləri iclasının katibi olmuşdur. 534
Musəvi, Mirfəttah (1891-1919): Milli Şura İdarəsinin və Məclisi-Məbusan İdarəsinin dəftərdarı (qeydiyyat məmuru) olmuşdur. 4, 273, 348
Mustafa: İzmirdə şəhid edilən türk. 556
Mustafa əfəndi: Osmanlı Parlamentinin yuxarı palatası olan Əyan Məclisinin üzvü; Ədliyyə naziri olmuşdur. 366
Mustafa Kamal: bax. Atatürk.
Mustafa Nuri oğlu: Türk əsiri. 533
Mustafa Rəşid paşa (1858-1924): Osmanlı dövlət xadimi; 1918-1919 və 1919-1920-ci illərdə Xarici İşlər naziri olmuşdur. 168, 366
Mustafayev, Həsən. 374, 463, 464
Mustafayev, Həsən: Bakı taciri, neftçi. 99, 264
Mustafayev, Həsən: Xaçmaz sakini. 21
Mustafazadə, Veysəl: Şəki-Ağdaş Müəllimlər İttifaqının sədrinin müavini olmuşdur. 22
Mutsihito: bax. Meici.
Mutuşev: vəkil. 346
Muznik, Karl: pəhləvan. 109, 273, 355, 462, 487, 628
Müctəhidzadə, Əbdürrəhim (Ağa Əbdürrəhim): Şuşa ruhanilərindən. 130
Mühəqqiq, Seyid Cavad: İranın siyasi xadimi. 446
Mühəqqiqüddövlə: İranın siyasi xadimi. 446
Müxbirüssəltənə, Mehdiqulu xan Hidayət (1864-1955): İranın siyasi xadimi; Baş nazir. 445, 446
Müller: Vyanadakı Alman hərbi bürosunun başçısı. 339
Münasib İbrahim oğlu (Molla İbrahim oğlu): Qaçqın Axısxa türklərindən. 481
Müntəsərülmülk, Mirzə Məhəmmədəli xan: İranın siyasi xadimi. 446
Mürsəlzadə, Piri: "Müsavat" üzvü. 155, 480, 559
Müsavat, Ağa Seyid Məhəmmədrza: İranın siyasi xadimi və jurnalisti; "Müsavat" qəzetinin redaktoru. 445, 446
Müstövfi əl-Məmalik, Mirzə Həsən xan (1874-1932): İranın siyasi xadimi; Baş nazir. 445, 446
Müşavirülmülk: İranın siyasi xadimi. 446
Müşir Fuad paşa (yaxud Dəli Fuad paşa; 1835-1931): Osmanlının hərbi xadimi; marşal. 611
Müşirüddövlə, Həsən Pirniya (1872-1935): İranın siyasi xadimi; Baş nazir. 445, 446
Müzəffərov, Hüseyn: "Müsavat"ın Müsalihə və Müdafiə şöbəsinin sədri olmuşdur; fəhlələrin təşkilatlandırılması işində fəal iştirak etmişdir. 294, 348, 452
Müzəffərov, Yusif Həsənoviç: Cənubi Rusiyada Müsəlman Milli Mərkəzi Komitəsinin sədri. 141
N.: "Azərbaycan" qəzetində imza. 82, 209, 358, 518
Nabatəlibəyov, Aslan bəy: Sosial Təminat Nazirliyinin Lənkəran müfəttişi. 641
Nağıbəyov: İttihad partiyası üzvü. 643
Nağıyev, Qasım. 323
Nağıyev, Musa (1842-1919): Azərbaycanın neft sənayeçisi və xeyriyyəçi. 346, 347
Nağıyeva, Yelizaveta Qriqoryevna: neft sənayeçisi Musa Nağıyevin həyat yoldaşı. 347
Naməlum: pəhləvan. 27, 79, 137, 159, 329, 436, 462, 487, 542

Namitokov, A.: Kuban hökumətinin Paris Sülh Konfransına göndərdiyi nümayəndə heyətinin üzvü olmuşdur. 449
Napoleon I (1769-1821): 18 may 1804 - 6 aprel 1814 və 20 mart - 22 iyun 1815 tarixlərində Fransa imperatoru. 45, 46, 96, 124, 135, 243
Nasirəddin Əbdülxəlil oğlu: Göyçaylı əsgər. 181
Nazim paşa: 1919-cu ildə Osmanlı dövlətinin Hərbi naziri olmuşdur. 173
Nazimülüləma, Mirzə Məhəmməd: İranın siyasi xadimi. 446
Nemanzadə, Ömər Faiq (1872-1937): Azərbaycanın publisist və pedaqoqu; ictimai-siyasi xadimi. Milliyyətcə Axıska türküdür. 72
Nəbi Qəhrəman oğlu: Kalış kəndinin sakini. 253
Nəcəf Ələkbər oğlu: Sabunçuda xəfiyyə polisi nəfəri olmuşdur. 47
Nəcəfqulu (Qoçu Nəcəfqulu): bax. Rzayev, Nəcəfqulu.
Nəcəfov, Rzaqulu (1884-1937): Naxçıvanda anadan olmuş, bir müddət Tiflisdə yaşamış, burada İrəvan Həmtorpaqlıları Cəmiyyətinin müvəkkili olmuşdur. Şair Əliqulu Qəmküsarın kiçik qardaşıdır. 503
Nəcib Asim (Yazıqsız, 1861-1935): Türk alimi və siyasətçisi. Hərbi təhsil almış, müxtəlif dərəcəli hərbi məktəblərdə dərs demişdir. Türkiyə Böyük Millət Məclisinin üzvü olmuşdur. Xüsusilə dil və tarix sahəsindəki əsərləri ilə tanınan Nəcib Asim Türkiyədə türkologiyanın banilərindən və eyni zamanda ilk türkçülərdən biridir. 258
Nəcməddin Arif: Türk doktor və ictimai xadim. 615
Nərimanov, Əlimirzə bəy: Azərbaycanın maarif xadimi; Tiflis Müsəlman Milli Şurasının sədri. 127, 150
Nərimanov, Nəriman (1870-1925): Azərbaycanın ictimai-siyasi xadimi və dövlət adamı; eyni zamanda yazıçı, publisist və həkim. 112, 249
Nərimanov, Yunis: bax. Nərimanzadə, Yunis.
Nərimanzadə, Yunis (yaxud Nərimanov; 1895-1964): aktyor; rəqqas. 410
Nəsir Divan: İranın siyasi xadimi. 446
Nəsirzadə, Məhəmmədhüseyn: bax. Məhəmmədhüseyn Nəsir oğlu.
Nəvvab: İranın siyasi xadimi. 445, 446
Nikolay II (1868-1918): Rusiya imperatoru; 1894-1917-ci illərdə hakimiyyətdə olmuşdur. 129, 225, 266, 267, 344, 362, 477, 526, 570, 604
Nikolay Nikolayeviç (Böyük knyaz; 1856-1929): Rus çarı I Nikolayın nəvəsi. 1915-1917-ci illərdə Qafqaz canişini; 1914-1915-ci illərdə və 1917-ci ilin mart ayında Rusiya imperiyasının bütün quru və dəniz qüvvələrinin Baş komandanı olmuşdur. 1919-cu ildə etibarən İtaliya və Fransada mühacirətdə yaşamışdır. Fransada ölmüşdür. 168
Nikolayeva: aktrisa; Tiflis Azərbaycan teatr truppasının üzvü olmuşdur. 563
Nisbət Heydər qızı (Məşhədi Heydər qızı): Şamaxı sakini. 478
Nitti, Françesko [Francesco Nitti; 1868-1953]: İtaliyanın siyasi xadimi. Kənd Təsərrüfatı, Ticarət və Sənaye naziri (1911-1914), Maliyyə naziri (1917-1919), Baş nazir və Daxili İşlər naziri (1919-1920) olmuşdur. 336, 608, 637
Niyazov: Zəngəzurda üçüncü sahənin pristavı. 375
Niyyət Balababa oğlu: Bakı sakini. 589
Nizami Gəncəvi (1141-1209): dahi Azərbaycan şairi. 202
Noks, Filander Çeyz [Philander Chase Knox; 1853-1921]: Amerikanın siyasi xadimi, senator (1904-1909; 1917-1921). 5, 84
Nonne, Nikolay Avqustoviç fon der (1836-1906): Alman əsilli mühəndis; 1898-1902-ci illərdə Bakı Şəhər Dumasının sədri olmuşdur. 376
Nortkliff (Lord Nortkliff): bax. Harmsvort, Alfred.





Noske, Qustav [Gustav Noske; 1868-1946]: Almaniyanın siyasi xadimi; sosial-demokrat. 1919-1920-ci illərdə Müdafiə naziri olmuşdur. 140, 229, 343
Nuri əs-Səid (1887-1958): Osmanlı ordusunda xidmət etmiş, sonra ərəblərin türklər əleyhinə üsyanına qoşulmuşdur. Əmir Faysalın ordusunda yüksək vəzifələr tutmuşdur. 1930-cu ildən etibarən dəfələrlə İraqın Baş naziri olmuşdur. İraq üsyanı əsnasında öldürülmüşdür. 444
Nuri Mustafa oğlu: Qaçqın Axısxa türklərindən. 481
Nuri paşa (Killigil; 1889-1949): Osmanlı ordusunun general-leytenantı. Qafqaz İslam Ordusunun komandanı olmuşdur. 252, 304
Nurizadə, Hacıağa (yaxud Hacıağa Nuri; 1894-1930): Almaniyada təhsil almışdır. Parlament İdarəsində kvestorun (təsərrüfat müdirinin) müavini işləmişdir. "Müsavat"ın Şura üzvü olmuşdur. Cümhuriyyətin süqutundan sonra Türkiyədə yaşamışdır. 73
Nurulla Məhəmməd oğlu: fəhlə, Ağ şəhərdə mədəndə işləmişdir. 347
Nüsrətüddövlə, Firuz Mirzə (1889-1937): 1919-cu ildə İranın Xarici İşlər naziri olmuşdur. 92, 106, 279, 445, 491
Nüsrətüddövlə, Sərdar: İranın siyasi xadimi. 446
Odişelidze: Gürcü generalı; Gürcüstanın Kubandakı nümayəndəsi. 403
Odişelidze, İlya Zuraboviç (1865-1925): Gürcüstanın hərbi xadimi; general-leytenant. Gürcüstan ordularının Baş komandanı olmuşdur. 5, 25
Olenskaya, A. N.: aktrisa. 409
Olenskaya, Yeva Nikitiçna (1900-1959): Azərbaycan aktrisası. Qubada doğulmuş, kiçik yaşda ailəsiylə birgə Bakıya köçmüşdür. "Nicat" və "Səfa" truppalarının, "Hacıbəyov qardaşları müdiriyyəti" truppasının üzvü olmuşdur. Uzun müddət Milli Dram Teatrının səhnəsində çıxış etmişdir. 1949-cu ildə Azərbaycan SSR Xalq artisti adına layiq görülmüşdür. 409
Oleynikov, Vladimir: Rus pəhləvan. 1, 79, 137, 245, 301, 329, 355, 436, 487, 515
Orbay: bax. Hüseyn Rauf.
Oriol, Vinsent [Vincent Auriol; 1884-1966]: Fransanın siyasi xadimi. Fransa Parlamentində xüsusilə maliyyə məsələləri ilə məşğul olmuşdur. Nazir, Parlamentin sədri, daha sonra Fransa prezidenti (1947-1954) olmuşdur. 167
Orlando, Vittorio Emanuele [Vittorio Emanuele Orlando; 1860-1952]: İtaliyanın siyasi xadimi; 1917-1919-cu illərdə Baş nazir olmuşdur. 636
Oruczadə, Məhəmmədəli: Şuşa sakini, Şuşa qazılıq idarəsinin kargüzarı. 81
Osipov, Nikolay: Zəngəzurda yerli azərbaycanlı əhaliyə qarşı soyqırım törədən erməni dəstə başçılarından. 475
Osipyan: Qarsda yerli türk əhaliyə zülüm edən erməni quldur dəstələri başçılarından. 471
Osipyans: Qars vilayətində yerli türk əhaliyə zülüm edən erməni dəstələrinin komandirlərindən olmuşdur. 473
Ostrovski: Polşa diplomatı. 646
Ozanyan, Andranik (1865-1927): Erməni hərbçi. Daşnaksutyun partiya-sının üzvü idi. Başçılıq etdiyi silahlı dəstələr Qarabağda, Zəngəzurdə və Türkiyənin şərqində dinc əhaliyə qarşı törədilən qırğınlarda xüsusilə fəal iştirak etmişdir. 70, 281, 474, 475, 590
Ömər (Qaçaq Ömər): Dağıstanda Denikin hakimiyyətinə qarşı üsyan edən dəstələrin başçılarından olmuşdur. 193
Özdən, Məhməd Aqil Muxtar (1878-1949): Türk həkimi və siyasi xadimi. Avropada təhsil almışdır. Türkiyə Parlamentinin üzvü olmuşdur. 144
Palavandov, Murtuza bəy: hüquqşünas, vəkil. Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 346
Palen, Aleksey Petroviç (1874-1938): Rusiyanın hərbi xadimi; general-leytenant;

qraf. Ağqvardiyaçılar hərəkatının iştirakçısı. 467
Palitsın: Könüllü ordunun Bakıdakı İngiltərə Komandanlığı nəzdindəki nümayəndəsi; polkovnik. 19, 585
Papon: Zəngəzurda yerli azərbaycanlı əhaliyə qarşı soyqırım törədən erməni dəstə başçılarından. 475
Paronyan, Arşak Arutyunoviç: Erməni Milli Şurasından Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 161
Paşa Nəsir oğlu: Bakı sakini. 589
Paşazadə, Həmid (Məşhədi Həmid): Bakıda yaşayan İranlılardan, “Müsavat” üzvü. 295
Payçadze: Gürcü quldur. 646
Pekarski, Lüdviq Mixayloviç: Bakıda işləmiş polyak əsilli mühəndis. 274
Pepinov, Əhməd bəy (yaxud Əhməd Cövdət Pepinov; 1893-1937): Azərbaycanın ictimai-siyasi xadimi; Azərbaycan Parlamentinin üzvü olmuş, Əmək və Əkinçilik naziri vəzifəsini tutmuşdur. Sovet rejimi tərəfindən güllələnmişdir. (ayrıca bax: Axıskalı) 1, 2, 30, 31, 138, 161, 162, 163, 164, 220, 221, 223, 243, 266, 358, 383, 385, 412, 516, 632
Perçinin: Bakı Bələdiyyə İdarəsinin üzvü. 346
Perşinq, Con [John Pershing; 1860-1948]: Amerikanın hərbi xadimi; general. 227, 243
Peterson: Müttəfiqlər Təhqiqat Komissiya-sının İngiltərədən olan üzvü. 117
Petlyura, Simon Vasilyeviç (1879-1926): Ukraynanın siyasi və hərbi xadimi. Ukrayna Xalq Respublikası Direktoriyasının rəhbərlərindən olmuşdur. 113, 227, 251, 262, 316, 393, 418, 490, 494, 521, 522, 523, 547, 575, 576
Petrov: Şuşa Realnı məktəbinin direktoru olmuşdur. 482
Petruşeviç, Yevgeni Yemelyanov (1863-1940): Qalisiya Seyminin üzvü, Qərbi Ukrayna Xalq Respublikasının Milli Şura sədri (1918), Prezidenti (1918-1919) və Baş naziri (1919-1920). 87
Pənah xan (yaxud Pənahəli xan; 1693-1763): Qarabağ xanı. 1747-ci ildə Qarabağ xanlığının əsasını qoymuşdur. 303
Piçixaya: Gürcü bolşeviki. 648
Piçikyan: Xırda İstiqraz və Əmanət Cəmiyyətləri İttifaqının İdarə üzvü. 318, 319
Pifaqor (e. ə. 570 – e. ə. 490): qədim yunan filosofu, riyaziyyatçısı və musiqi nəzəriyyatçısı. 260, 261
Pilyam, T.: Bakıda müəllim olmuşdur. 157
Pirməhəmməd Qədir oğlu (Hacı Qədir oğlu): milis. 182
Pişon, Stefan [Stéphen Pichon; 1857-1933]: Fransanın siyasi xadimi. 1906-1911-ci illərdə Xarici İşlər naziri olmuşdur. Birinci Dünya müharibəsinin sonlarında və Paris Sülh Konfransı dövründə aktiv fəaliyyəti ilə diqqəti cəlb etmişdir. 84, 489
Podşibyakin, Mixail Floroviç (1883-1963): Litvada anadan olmuş, Peterburq Universitetinin Tarix-Filoloji və Hüquq fakültələrini bitirmişdir. Bakı məktəblərində işləmiş, mətbuatda çıxış etmişdir. Kadetlər partiyasının üzvü olmuşdur. Cümhuriyyətin süqutundan sonra Azərbaycanı tərk etmişdir. 112, 221
Poklevski-Kozell, Stanislav Alfonsoviç (1863-1937): Rus diplomatı. 1909-1913-cü illərdə İranda, 1913-1917-ci illərdə Rumıniyada səfir olmuşdur. Oktyabr inqilabından sonra Rusiyaya qayıtmamışdır. 251
Politis, Nikolaos (1872-1942): Yunanıstan diplomatı. 1917-1918, 1919-1920 və 1922-ci illərdə Xarici İşlər naziri olmuşdur. 608
Polk, Frenk Lion [Frank Lyon Polk; 1871-1943]: ABŞ hüquqşünası və diplomatı. 1919-1920-ci illərdə ABŞ Dövlət katibinin 1-ci müavini və Dövlət katibi olmuşdur. Paris Sülh Konfransında Amerika heyətinin rəhbəri idi. 36, 227, 466, 547
Polonski: Tağıyev Teatrının icarədarı. 640
Potyomkin, Qriqori Aleksandroviç (1739-1791): Rusiyanın dövlət xadimi; general-feldmarşal. Qara dəniz hərbi donanmasının təsisçisi və ilk komandanı. 638





Prussor: Qarsdakı ingilis nümayəndələrindən; kapitan. 472
Puankare, Raymon [Raymond Poincaré; 1860-1934]: Fransanın dövlət xadimi. 1912-1913-cü illərdə Baş nazir və Xarici İşlər naziri, 1913-1920-ci illərdə Prezident, 1922-1924-cü illərdə yenidən Baş nazir və Xarici İşlər naziri olmuşdur. 61, 365, 465, 607, 635
Purişkeviç, Vladimir Mitrofanoviç (1870-1920): Rusiyanın siyasi xadimi; monarxist və qaragüruhçu. Rus Xalqının İttifaqı (Soyuz russkoqo naroda) adlı qaragüruhçu monarxist təşkilatın liderlərindən biri olmuşdur. 86, 225
Püstəxanım. 402
Pyer Loti [Pierre Loti; 1850-1923]: Fransız zabiti və yazıçısı. Həqiqi adı Lui Mari-Jülyen Vio [Louis Marie-Julien Viaud] idi. Ekzotik ölkələrin həyatından bəhs edən romanları ilə məşhur olmuşdur. 231, 232
Pyotr I (1672-1725): Rusiya hökmdarı; 1682-1725-ci illərdə hakimiyyətdə olmuşdur. 498
Rai: bax. Yusifzadə, Əli.
Raqenbaum: pəhləvan. 1, 273, 409, 515, 542, 597
Ramazan Təyyar: Biləsuvarda quldur dəstəsi başçısı olmuşdur. 561
Ramazanov (? - 1919): Dağıstanlı zabit. 284
Ramişvili, Noy Vissarionoviç (1881-1930): Gürcüstanın dövlət xadimi. Menşevik. Ruhani seminariyasını bitirmiş, yarımçıq hüquq təhsili almışdır. Zaqafqaziya Demokratik Federativ Respublikasının Daxili İşlər naziri, Gürcüstan Demokratik Respublikasının Baş naziri, eyni zamanda Daxili İşlər naziri, daha sonra Xarici İşlər naziri olmuşdur. 486, 650
Rapolski: Rostov sakini. 313
Raysuli, Əhməd (yaxud Əhməd Raysuni; 1871-1925): Mərakeşin hərbi və siyasi xadimi. Ölkəsindəki işğalçı ispan güclərinə qarşı mübarizə aparmışdır. 244, 339, 390
Renner, Karl [Karl Renner; 1870-1950]: Avstriyanın siyasi xadimi. 1918-1920-ci illərdə Avstriya hökumətinin sədri, həmçinin 1919-1920-ci illərdə Xarici İşlər naziri olmuşdur. 443, 491, 547
Reynhardt, Valter [Walther Reinhardt; 1872-1930]: Almaniyanın hərbi xadimi; general. Polkovnik rütbəsi ilə Prussiyanın Hərbi naziri olmuşdur. 228
Rəcaizadə Əkrəm (Rəcaizadə Mahmud Əkrəm; 1847-1914): Türk şair və yazıçısı. 615
Rəcəbov, Əbdüləhəd: Biləsuvar polis müdiri olmuşdur. 561
Rəfibəyli, Səməd bəy (1892-1980): Azərbaycanın və Türkiyənin hərbi xadimi; general. 129
Rəfibəyov Gəncəli, Səməd bəy: bax. Rəfibəyli, Səməd bəy.
Rəfiyev, Musa bəy (1888-1938): Azərbaycanın dövlət xadimi. Xarkov Universitetinin Tibb fakültəsini bitirmiş, həkim işləmişdir. Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində portfelsiz nazir, Səhiyyə və Sosial Təminat naziri kimi vəzifələr tutmuşdur. Cümhuriyyətin süqutundan sonra mühacirətə getmişdir. 249, 359, 362, 436
Rəhim. 101, 102
Rəhimli, Rəsul: Azərbaycan Cümhuriyyəti Poçt və Teleqraf Nazirliyində kargüzar işləmişdir. 110
Rəhimov, Əli Zeynalabdin oğlu (yaxud Əli Məhzun, Yetim cücə; 1886-1934): İrəvanlı şair və publisist. “Məhzun”, “Yetim cücə” və s. təxəllüslər işlətmişdir. “Molla Nəsrəddin”, “Babayi-Əmir”, “Ləklək”, “Yeni irşad”, “Sədayi-həqq”, “Məlumat” və digər qəzet və jurnallarda yazmışdır. 94, 106
Rəhimzadə: Müsəlman Mütəəllimləri Təşkilatının üzvü. 534
Rəhimzadə, Əbdülhəsən: Qazax Mütəəllimlər Cəmiyyəti sədrinin müavini. 432
Rəisülvüzəra: İranın siyasi xadimi. 446

Rəsulzadə, Damənəli: "Müsavat"ın Suraxanı şöbəsinin üzvü olmuşdur. 47
Rəsulzadə, Həsən: Qazax Mütəallimlər Cəmiyyəti idarə heyətinin üzvü. 432
Rəsulzadə, Məhəmməd Əli (1884-1982): Azərbaycan Cümhuriyyətinin ictimai-siyasi xadimi, Parlamentin üzvü. Məhəmməd Əmin Rəsulzadənin əmisi oğlu idi. 1922-ci ildə mühacirətə getmişdir. 155, 263
Rəsulzadə, Məhəmməd Əmin (1884-1955): Azərbaycanın görkəmli dövlət xadimi, Cümhuriyyətin qurucularından biri. Azərbaycan Milli Şurasının və "Müsavat" partiyasının sədri; eyni zamanda jurnalist və publisist. 46, 73, 139, 163, 164, 533, 545, 581
Rəşid xan: Talış xanlarının nəslindən. 396
Ria: general. 456
Ria, Ceyms: polkovnik. 419, 455
Riççi: Müttəfiqlər Təhqiqat Komissiyasının İtaliyadan olan üzvü. 117
Rodzyanko, Aleksandr Pavloviç (1879-1970): Rusiyanın hərbi xadimi; general-leytenant. Şimal-qərb cəbhəsində Ağqvardiyaçılar hərəkatının liderlərindən olmuşdur. 168, 467
Roulendson [Rowlandson]: Britaniya ordusunun Qafqazdakı zabitlərindən; polkovnik. 616, 617
Rozenbaum: pəhləvan. 159
Rudinovski: Rusiya Zemski İttifaqının nümayəndəsi. 470
Rudnev, Sergey İvanoviç (1873-1920): Rusiyanın hərbi xadimi; general-mayor. 1919-cu ildən Könüllü ordu sıralarında Dağıstanda xidmət etmişdir. 617
Ruqiyyə Bədəl qızı: yetim qız. 644
Rustamaşvili: Sibir və Uzaq Şərq gürcülərinin nümayəndəsi. 404
Rüfətüddövlə, Rüstəm xan: İranın siyasi xadimi. 446
Rüstəmbəyli, Şəfi bəy (1893-1960): Azərbaycanın ictimai-siyasi xadimi. Kiyev Universitetinin Hüquq fakültəsini bitirmişdir. Azərbaycan Milli Şurasının və Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü, "Azərbaycan" qəzetinin redaktorlarından biri olmuşdur. 32, 33, 163, 221, 222, 383, 384, 385, 601, 603
Rüstəmzadə, Əbdüləziz. 621
Rüstəmzadə, Əbülqasım: "Müsavat" partiyasının Quba şöbəsinin sədri olmuşdur. 643
Ryabinin, Nikolay Aleksandroviç (1885-1938): Rusiya hərbi dəniz qüvvələrinin zabiti, kapitan. Xəzər dənizi və Qara dəniz donanmalarında qərargah rəisi olmuşdur. 38
Rza Dadaş oğlu: Balaxanada fəhlə. 451
Rza İman oğlu (Molla Rza Molla İman oğlu): Gəncədə Kəndçi-Əkinçi İttifaqı Mərkəzi Komitəsinin üzvü. 296
Rza Məşhədihüseyn oğlu. 402
Rza Zaki: bax. Lətifbəyov, Rza.
Rzayev, Abuzər bəy Əliəsgər bəy oğlu (1876-1920): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Moskva Ali Texniki Məktəbini bitirmiş, Azərbaycanda neft mədənlərində mühəndis kimi işləmişdir. Gəncədən Azərbaycan Parlamentinə üzv seçilmişdir. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən güllələnmişdir. 305, 308
Rzayev, Mahmud: Bakıda, Olqinski (indiki Məhəmməd Əmin Rəsulzadə) küçəsində meyvə dükanı olmuşdur. 555
Rzayev, Nəcəfqulu (yaxud Qoçu Nəcəfqulu, ? - 1920): Bakı qoçularından olmuşdur. 1918-ci ilin Mart qırğınlarında daşnak-bolşevik qoşunlarına qarşı vuruşmuşdur. Sovet hökuməti tərəfindən güllələnmişdir. 211
Rzayev, Rzabala: Kürkənd müvəkkili. 641
Rzayeva, Bikəxanım Tağı qızı [Hacı Tağı qızı]. 24
Rzazadə, Məhəmməd (Hacı Məhəmməd): Zabrat kəndinin camaat vəkili. 451
Sabaxtaraşvili, Konstantin Bejanoviç (1884-1937): Gürcü sosial-demokratlarından, Gürcüstan Təsisçilər Məclisinin üzvü, Daxili İşlər nazirinin müavini, Xarici İşlər nazirinin müavini olmuşdur. 1921-ci ildən etibarən mühacirətdə yaşamışdır. 130, 391
Sabir, Mirzə Ələkbər (1862-1911): Azərbaycanlı şair, məşhur satira ustası. 241
Sabunçuoğlu: Müttəfiqlər Təhqiqat Komissiyasının Fransadan olan üzvü. 117
Sad.: "Azərbaycan" qəzetinə Lənkərandan yazmışdır. 240, 296
Sadıq Sadıq oğlu. 103
Sadıqov, Abutalıb: Bakı limanının pristavı olmuşdur. 101
Sadıqov, Mirpaşa (? - 1921): Azərbaycan aktyoru; yazıçı Seyid Hüseynin qardaşı. Qarabağda ermənilər tərəfindən xaincəsinə qətl edilmişdir. 410
Saidülmülk: İranın Türküstanda baş konsulu olmuşdur. 446
Sadıqzadə, Hüseyn: Qazax Mütəallimlər Cəmiyyətinin üzvü. 432
Salah Xanpirəli oğlu: Zəngəzurun Saldaş kəndinin sakini. 39
Saleh Xülusi paşa (1864-1939): Osmanlı dövlət xadimi. Bəhriyyə (Dənizçilik) naziri (1919), Baş nazir (1920) olmuşdur. 366
Salehov, Məhəmmədəli: bax. Salehzadə, Məhəmmədəli.
Salehzadə, Məhəmmədəli (Kərbəlayı Məhəmmədəli): Müsəlman Xeyriyyə Cəmiyyətinin idarə heyətinin üzvü olmuşdur. 265, 356
Salimə Zeynal qızı: Zəngəzur qaçqını yetim qız. 505
Saltınski, Uzun Hacı (1848-1920): Şimali Qafqazın dini, hərbi və siyasi xadimi. Dağlılar Respublikası Parlamentinin üzvü, Dağıstan və Çeçenistanın imamı olmuşdur. 177, 193
Salukvadze (? - 1919): Gürcü cinayətkar. 351
Sanders, Otto Liman fon [Otto Liman von Sanders; 1855-1929]: Almaniyanın hərbi xadimi; general-leytenant. Birinci Dünya müharibəsi dövründə Osmanlı imperiyasında hərbi məsləhətçi olmuşdur. 606
Sanılı, Hacı Kərim (yaxud Sanıyev; 1878-1937): Azərbaycanın ictimai-siyasi xadimi, şair. Qori Seminariyasında təhsil almış, Azərbaycanın müxtəlif yerlərində müəllim işləmişdir. Azərbaycan Parlamentinin üzvü olmuşdur. Repressiyaya məruz qalmışdır. 246, 266, 267, 350
Sanıyev: bax. Sanılı, Hacı Kərim.
Santros: İtalyan mühəndisi. 253
Sarablı, Hüseynqulu (yaxud Hüseynqulu Rzayev; 1879-1945): Azərbaycan aktyoru. Azərbaycan Cümhuriyyətinin mədəni həyatında fəal iştirak edən Sarablının, Azərbaycan teatrının, eləcə də musiqisinin inkişafında misilsiz xidmətləri olmuşdur. 409
Sarabski: bax. Sarablı, Hüseynqulu.
Saturov: Bakıda mədən sahibi erməni. 537
Savenko, Anatoli İvanoviç (1874-1922): Rusiyanın ictimai-siyasi xadimi, jurnalist. 280, 299
Savitski, V.: Kuban hökumətinin Paris Sülh Konfransına göndərdiyi nümayəndə heyətinin üzvü olmuşdur. 449
Sayks, Mark [Mark Sykes; 1879-1919]: İngilis diplomatı; Yaxın Şərq ölkələri barədə ixtisaslaşmışdı. 215
Sazonov, Sergey Dmitriyeviç (1860-1927): Rusiyanın diplomatı. Bir sıra ölkələrdə səfir kimi işləmiş, 1910-1916-cı illərdə Xarici İşlər naziri olmuşdur. Rusiyanın cənubunda Xüsusi Şura Hökumətinin tərkibində yer almışdır. Mühacirətdə ölmüşdür. 5, 168, 465, 549
Semyonov, Qriqori Mixayloviç (1890-1946): Rusiyanın hərbi xadimi, general-leytenant. Kazak atamanlarından olan Semyonov, Ağqvardiyaçılar hərəkatının iştirakçısı idi. Uzun müddət Kolçakı Rusiyanın Ali rəhbəri kimi qəbul etməmiş və Zabaykalsk diyarında müstəqil hərəkət etmişdir. 116
Servantes, Migel de [Miguel de Cervantes; 1547-1616]: ispan yazıçısı; məşhur "Don Kixot" romanının müəllifi. 517
Sesil, Robert [Robert Cecil; 1864-1958]:

Britaniyanın ictimai-siyasi xadimi. Millətlər İttifaqının ideoloqlarından biri olmuşdur. Millətlər İttifaqının həyata keçirilməsindəki xidmətlərinə görə 1937-ci ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. 636

Sestrinski, Yakov Ye.: Prişib poçt-teleqraf idarəsi müdiri. 302

Seyfürrəhman: Əfqanıstan ordusunun ali nümayəndəsi. 391

Seyid Hüseyn Mirqafar oğlu (Hacı Seyid Hüseyn). 478

Seyid Hüseyn Sadiq (1887-1938): Azərbaycan yazıçısı, müəllimi, jurnalisti və naşiri. Sovet rejimi tərəfindən güllələnmişdir. 73, 155

Seyid Məhəmməd (Ağayi-Seyid Məhəmməd): İranın siyasi xadimi. 446

Seyid Mirim: Xoçamsaxlı kəndi sakini. 40

Seyid Zərgər: "Müsavat" partiyasının baş katibi olmuşdur. 155

Seyidbəyov, Hacıbəy: mühəndis; Azərbaycan Dəmiryol İdarəsi Teleqraf şöbəsinin rəisi olmuşdur. 4

Seyidhüseynzadə, Mirhaşım: İran maarif cəmiyyəti "Tərəqqi"nin katibinin müavini. 506

Seyidməhəmmədzadə, Mirabbas: Bakı sakini. 560

Seyidov, Əbutalib: Dağıstanlı qaçqınlardan; Dərbəndli müəllim. 401

Seymur [Seymour]: İngiltərə donanması komandanı. 419

Seyyidülmülk: İranın siyasi xadimi. 446

Səfərəlibəyov, Ağabəy: Biləsuvar pristavının müavini olmuşdur. 628

Səfərəlibəyov, İsmayıl bəy: bax. Səfərəliyev, İsmayıl bəy.

Səfərəliyev, İsmayıl bəy (yaxud Səfərəlizadə; Səfərəlibəyov): Azərbaycanlı xeyriyyəçi; Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü olmuşdur. 265

Səfərəlizadə, İbrahim: Göyçay Müəllimlər İttifaqı sədrinin müavini. 402

Səfərov: Azərbaycanın Ermənistandakı siyasi nümayəndəliyinin müstəşarı (müşaviri) olmuşdur. 286

Səfərov, Əşrəf. 241

Səfərov, Məhəmməd Əli Sidqi (1888-1956): Azərbaycan publisisti, yazıçısı və jurnalisti; Məhəmməd Tağı Sidqi Səfərovun oğlu. Azərbaycan Cümhuriyyəti Parlamentinin katibi (stenoqrafisti) olmuş, eyni zamanda teatrda müxtəlif rollarda çıxış etmişdir. 217, 245, 516, 541, 598, 627

Səfikürdlü, Aslan bəy: bax. Səfikürdski, Aslan bəy.

Səfikürdski, Aslan bəy (yaxud Səfikürdlü, 1881-1937): Azərbaycanın dövlət xadimi. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Azərbaycan Parlamentinin üzvü olmuş, 3-cü hökumət kabinəsində Poçt-Teleqraf və Əmək naziri, 4-cü kabinədə Ədliyyə və Əmək naziri vəzifələrini tutmuşdur. 164, 374, 463

Səfiyyə Davud qızı (Hacı Səfiyə). 44

Səftər Ələkbər oğlu. 621

Səhhət, Abbas (Abbas Əliabbas oğlu Mehdizadə; 1874-1918): Azərbaycan şairi, dramaturqu, tərcüməçisi və dərslik müəllifi. 238

Səid bəy: Osmanlı dövlət xadimi; Maarif naziri olmuşdur. 366

Səlim Bədəl oğlu: Bibiheybətdə mədəndə işləmişdir. 73

Səlimə Hüseyn qızı: yetim qız. 644

Səlimov, Həbib bəy (1881-1920): Azərbaycanın hərbi xadimi; general-mayor. 561

Səlimzadə: Bakıdakı Osmanlı təbəələrindən; şofer. 459

Səməd Məhəmmədhəsən oğlu (Məşhədi Səməd Kərbəlayi Məhəmmədhəsən oğlu): Gəncədə Kəndçi-Əkinçi İttifaqı Mərkəzi Komitəsinin üzvü. 296

Səmədov, Əbdüssalam: "Müsavat" partiyasının Salyan komitəsinin üzvü. 127

Səmədzadə, Hüseyn Kərim oğlu (Məşhədi Hüseyn Məşhədi Kərim oğlu). 157

Səmsamüssəltənə: bax. Bəxtiyari, Nəcəfqulu xan.





Sərdari-Müfəxxəm: Qacar şahzadəsi; İranın siyasi xadimi. 446

Sərxan Məhəmmədqulu oğlu: Bığırlı Müskürlü kəndinin sakini. 238

Səttaroğlu, Balaqədəş Mürşüd: Azərbaycan şairi. 125

Sıpkin: sirk aktyoru. 1

Sibəveyh: VII əsrdə yaşamış ərəb qrammatika alimi. 257, 271

Siddiqüssəltənə: Ərdəbil hakimi. 395

Sidqi, Məhəmmədəli: bax. Səfərov, Məhəmməd Əli Sidqi.

Sidqi Ruhulla, Molla oğlu (1886-1959): Azərbaycan aktyoru və teatr xadimi. 409, 410, 516, 541

Sihamüssəltənə: İranın siyasi xadimi. 446

Simko (yaxud Simko Şikaki, İsmayıl ağa Şikaki; 1887-1930): İrandakı kürdlərin liderlərindən, tayfa başçısı. 205, 396

Sinan paşa: XV əsrdə yaşamış türk alimi və dövlət xadimi. Türk ədəbiyyatında bədii nəsrin banisi kimi qəbul edilir. 203

Sipol, Alfred Davidoviç: Bakıda riyaziyyat müəllimi, Bakı Birinci gimnaziyasının direktoru, "İttihad" məktəbinin rus dili müəllimi. 476

Skoropadski, Pavel Petroviç (1873-1945): Rusiya və Ukraynanın hərbi-siyasi xadimi, general-leytenant. Rus ordusunun zabiti kimi Rus-yapon müharibəsində və Birinci Dünya müharibəsində iştirak etmişdir. 1917-ci il inqilabından sonra Ukrayna Mərkəzi Radasının hakimiyyətini qəbul etmiş, 27 aprel 1918-ci ildə bütün Ukraynanın getmanı, yəni Ukrayna Dövlətinin (İkinci Getmanlıq) başçısı seçilmiş və 14 dekabr 1918-ci il tarixinə qədər bu vəzifəni tutmuşdur. Getmanlıq rejiminin aradan qaldırılmasından sonra Almaniyaya mühacirətə getmişdir. 168

Smets, Yan Xristian [Jan Christiaan Smuts; 1870-1950]: Cənubi Afrikanın hərbi və siyasi xadimi, feldmarşal. Millətlər Cəmiyyətinin nizamnaməsinin hazırlanması prosesində iştirak etmişdir. 636

Smit: Batumdakı ingilis bankının müdiri. 622

Sokolovski, Dmitri Timofeyeviç (1894-1919): Ukraynalı ataman, 1919-cu ildə bolşeviklər əleyhinə üsyanın liderlərindən olmuşdur. 522

Sokrat: bax. Məlik-Şahnazaryan, Sokratbəy.

Solovyov: Şamaxı sakini. 72

Sona: Zəngəzur qaçqını yetim qız. 505

Staroşvili, Apollon Vladimiroviç: Gürcüstan pəhləvanı. 79, 109, 189, 301, 329, 355, 381, 487, 569, 597, 628

Student: pəhləvan. 27

Suxutaşvili: Gürcü bolşeviki. 648

Sulkeviç, Süleyman bəy (Məmməd bəy Sulkeviç; Matvey Aleksandroviç Sulkeviç; 1865-1920): Rusiyanın, Krımın və Azərbaycanın hərbi xadimi. Mənşəcə tatardır. Rus ordusunda xidmət etmiş, Krımda yaradılan Krım-Tatar Hökumətinin sədri olmuş, bu hökumətin Denikin tərəfindən aradan qaldırılmasından sonra Azərbaycana gəlmişdir. Azərbaycan Cümhuriyyəti Ordusunun Baş qərargah rəisi olmuş, milli ordu quruculuğuna böyük töhfə vermişdir. Cümhuriyyətin süqutundan sonra güllələnmişdir. 420

Sultan Əhməd qızı (Molla Əhməd): Dağıstanlı qaçqınlardan. 401

Sultanməlik Mürsəl oğlu: Küçəkənd sakini. 237

Sultanov. 34

Sultanov: Cavad qəzası rəisinin müavini; qəza rəisini əvəz etmişdir. 43

Sultanov, Abbas bəy: Zəngəzur "Nəşri-maarif" cəmiyyətinin xəzinədarı. 507

Sultanov, Cəlil bəy Əsgər bəy oğlu (1880-?): Zəngəzur qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 161

Sultanov, Əziz bəy. 270, 353, 434

Sultanov, Harun bəy: Şəki Sosial təminat dairə müfəttişi. 591

Sultanov, Xosrov bəy Əlipaşa bəy oğlu (1879-1943): Azərbaycan Cümhuriyyətinin

siyasi və hərbi xadimi. Azərbaycanın İstiqlal Bəyannaməsini imzalayanlardan biri olan Xosrov bəy Sultanov Cümhuriyyət dövründə Hərbiyyə naziri, Kənd Təsərrüfatı naziri, Qarabağ general-qubernatoru kimi vəzifələr daşımışdır. Sovet işğalından sonra mühacirət etmişdir. 39, 43, 130

Sultanov, Xosrov Paşa bəy: bax. Sultanov, Xosrov bəy.

Sultanov, Xudabəxş bəy: Zəngəzur "Nəşri-maarif" cəmiyyətinin sədri. 507

Sultanov, Rüstəm bəy Əlipaşa bəy oğlu (1873 - ?): mühəndis-texnoloq. Xosrov bəy Sultanovun qardaşı idi. Cümhuriyyət dövründə Hökumət zavodları müdiri, Müttəfiqlər Komissiyası (Odessa) nəzdində Azərbaycan Cümhuriyyətinin nümayəndəsi kimi vəzifələrdə işləmişdir. Sürgündə ölmüşdür. 274

Sultanova, Sürəyya xanım: Poçt və Teleqraf Nazirliyi Dəftərxanasında kargüzar müavini olmuşdur. 302

Sultanzadə, Cahanbəxş: Qazax Mütəəllimlər Cəmiyyəti idarə heyətinin üzvü. 432

Suviç: Daxili İşlər İdarəsi rəisi. 609

Sübhanquliyev, Ələddin (yaxud Ələddin Sübhanquluzadə): Qafqaz Şeyxülislamlıq İdarəsinin üzvü olmuşdur. 79, 80

Sübhanquluzadə, Ələddin: bax. Sübhanquliyev, Ələddin.

Süleyman Mənsur oğlu: Gəncə sakini. 347

Süleyman Mustafa oğlu: Balaxanada mədəndə işləmişdir. 537

Süleyman Şakir oğlu: türk əsiri. 533

Süleyman Şəfiq paşa (1860-1946): Türkiyənin hərbi xadimi; 1919-cu ilin avqust-oktyabr aylarında Hərbi nazir olmuşdur. 89, 172, 367

Süleymanbəyov, Məhəmməd bəy: Balaxanıda müstəntiq, Cavad qəzası rəisi olmuşdur. 126

Süleymanzadə, Əhməd: "Azərbaycan" qəzetinə Zaqataladan yazmışdır. 591

Şabanov, Mikayıl Baxış oğlu (Kərbəlayı Mikayıl Hacı Baxış oğlu): Bakı sakini. 480

Şahnazarov: Gürcü bolşeviki. 648

Şahnazaryan: Şuşa Realnı məktəbinin direktoru olmuşdur. 482

Şahnəzərov, Əhməd. 402

Şahsüvarov, Əliəkbər Kərim oğlu (1877-1920): Odessadakı Novorossiya Universitetinin Tibb fakültəsində bir müddət təhsil almış, sonra təhsilini Moskva Universitetinin Hüquq fakültəsində davam etdirmişdir. İran təbəəsi olan Şahsüvarov Petrovskda (Mahaçqalada) İranın vitskonsulu vəzifəsini tutmuşdur. Cümhuriyyət dövründə Azərbaycana gələrək dövlət qurumlarında müxtəlif vəzifələr tutmuş, o cümlədən 1919-cu ilin martından 1920-ci ilin əvvəllərinə qədər Qarabağ general-qubernatoru Xosrov bəy Sultanovun köməkçilərindən biri olmuşdur. 34

Şahsüvarov, Nurməhəmməd bəy Adilxan bəy oğlu (1883-1958): Azərbaycanın və Dağıstanın maarif və dövlət xadimi. Azərbaycanın Zəngəzur qəzasında anadan olmuş, Kiyev Universitetinin Hüquq fakültəsində təhsil almışdır. Azərbaycan və Dağıstanda maarif sahəsində işləmişdir. 1918-ci ilin mayından 1919-cu ilin mayına qədər Dağlılar Respublikasının Maarif naziri olmuşdur. Azərbaycan Cümhuriyyətinin Maarif və Dini Etiqad nazirinin müavini, həmçinin nazir (qısa müddət) olmuşdur. Sovet dövründə yenə maarif sahəsində fəaliyyət göstərmiş, repressiyaya məruz qalmış, 1943-cü ildə sürgündən qayıtmışdır. 6

Şahtaxtlı, Məhəmməd (1846-1931): Azərbaycan alimi və publisisti; Bakı Dövlət Universitetinin professoru. 40, 41, 42

Şahverdiyev, Mirəli: Astara gömrükxanasının müdiri olmuşdur. 101

Şaqubatov: Qarsda nahiyə milis rəisi olmuşdur; polkovnik. 472

Şamxali-Tarkovski, Yuri: rus zabiti, islam dinini qəbul edərək Yunisxan Qəhrəmanxan oğlu Şamxalzadə (Şamxalski) adını almışdır. 44





Şanter: səyyah, səyahətnamə müəllifi. 98, 107

Şarpi: Antanta qoşunlarının Türkiyədəki komandiri; general. 548

Şattlvort, Diqbi [Digby Shuttleworth; 1876-1948]: Britaniya Hindistanı Ordusu'nun zabiti; general. 1917-1919-cu illərdə Britaniyanın Qafqazdakı 39-cu piyada briqadasının və Qara dənizdəki 83-cü piyada briqadasının komandiri olmuşdur. 388

Şebeko, Nikolay Nikolayeviç (1863-1953): Rusiyanın diplomatı. Rumıniyada (1912-1913) və Avstriya-Macarıstanda (1913-1914) səfir olmuşdur. Rusiyada Vətəndaş müharibəsi dövründə Könüllü orduya qoşulmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 494

Şexter, Z. A.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 185, 213, 242, 298, 352, 377, 405, 433, 458, 565, 593, 624

Şekspir. 354, 567

Şeludyakov, Aleksandr: Bibheybət poçt-teleqraf idarəsinin müdiri. 302

Şervaşidze, Vladimir Konstantinoviç (yaxud Vladimir Konstantinoviç Çaçba): Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyində Zemstvo şöbəsinin müdiri. 531

Şevçenko, Taras Qriqoryeviç (1814-1861): Ukrayna şairi, yazçısı və mütəfəkkiri. 224

Şeybani, Cəlilülmülk: İranın siyasi xadimi. 446

Şeydeman, Filipp [Philipp Heinrich Scheidemann; 1865-1939]: alman sosial-demokrat, 1919-cu ilin fevral-iyun aylarında Veymar Respublikasının Baş naziri olmuşdur. 229

Şeyx Cavad (Ağa Şeyx Cavad): İranın siyasi xadimi. 446

Şeyx Əbdülqəni: axund. 264

Şeyxov, Nəsrulla (Məşhədi Nəsrulla): Tiflisdə, İrəvan Həmtorpaqlıları Cəmiyyətinin sədri olmuşdur. 97

Şəfi Ağabala oğlu. 73

Şəhil Mahmud oğlu: Küçəkənd sakini. 237

Şəmsəddin Sami (1850-1904): Türk yazıçısı, publisisti və dil alimi. "Təəşşüqi-Tələt və Fitnat" adlı əsəri türk ədəbiyyatında ilk roman olaraq qəbul edilir. Müxtəlif qəzetlərdə baş redaktor olmuş, eləcə də məqalələr yazmışdır. Fransızca və ərəbcə lüğətlər, türk dilinin izahlı lüğətini ("Qamusi-türki") hazırlamışdır. "Qamusül-ə'lam" adlı bioqrafiya, tarix və coğrafiya ensiklopediyasını nəşrə hazırlamışdır. Dram əsərləri, fransız ədəbiyyatından tərcümələri, türk mədəniyyəti və ədəbiyyatı tarixinə dair əsərləri var. 200, 202, 256, 257, 258, 271, 422, 516, 541, 563

Şəriətmədar: bax. Kirmani, Məhəmməd Şəriətmədar.

Şərif Hüseyn: bax. Hüseyn ibn Əli əl-Haşimi.

Şərifov, Abbas: bax. Şərifzadə, Abbas Mirzə.

Şərifov, Ağakərim: Azərbaycan süvari alayının zabiti. 346

Şərifov, Ağasəlim: Azərbaycan süvari alayının zabiti. 346

Şərifov, Hacıbaba: bax. Şərifzadə, Hacıbaba.

Şərifov, Qulamrza: bax. Şərifzadə, Qulamrza.

Şərifov, Mustafa Ağa İsmayıl oğlu (1875 - ?): Azərbaycanlı həkim. Xarkov Universitetinin Tibb fakültəsini bitirmişdir. Cümhuriyyət dövründə Bakı şəhər Bələdiyyə İdarəsinin Səhiyyə şöbəsinin müfəttişi, Tibbi-sanitar şöbəsinin müdiri olmuşdur. 560

Şərifzadə: Bakı Bələdiyyə İdarəsinin üzvü. 346

Şərifzadə, Abbas Mirzə (1893-1938): Azərbaycan aktyoru. "Səfa" və "Nicat" cəmiyyətlərinin truppalarında çıxış etmiş, "Hacıbəyli qardaşları müdiriyyəti"nə rejissor kimi dəvət edilmişdir. Azərbaycan teatr sənətinin inkişafında böyük xidmətləri olmuşdur. Sovet rejimi tərəfindən repressiyaya məruz qalmış, güllələnmişdir. 409, 410

Şərifzadə, Hacıbaba (yaxud Hacıbaba Şərifov; 1895-1920): Azərbaycanın teatr aktyoru və rejissoru. 410, 516, 541, 598, 627

Şərifzadə, Q. R.: bax. Şərifzadə, Qulamrza.

Şərifzadə, Qulamrza (yaxud Şərifov; 1884-1942): Azərbaycan aktyoru; Azərbaycan Dövlət Teatrının müdüri olmuşdur. Mühacirətə getmişdir. 109, 126, 138, 516, 537, 541, 650

Şıxəlibəyov, Asəf bəy Nurəli bəy oğlu (1886-1920): Azərbaycan Parlamentinin üzvü olmuşdur. Şamaxıdan seçilmişdir. "Müsavat" faksiyasına daxil idi. 248

Şıxəliyev, Əbdülqasım Əbdülsəttar oğlu (Hacı Əbdülsəttar oğlu). 406

Şıxlinski, Əliağa (1863-1943): Azərbaycanın hərbi xadimi. Rusiya imperiyası ordusunda general-leytenant rütbəsinə yüksəlmişdi. Azərbaycan Cümhuriyyəti ordusunun qurulmasında böyük xidmətləri olmuşdur. Azərbaycan Hərbi nazirinin müavini vəzifəsini tutmuşdur. 45

Şibayev, Q. İ.: Ticarət, Sənaye və Ərzaq Nazirliyində, Əmək Nazirliyində işləmiş, Bakı quberniyasında fabrik müfəttişi olmuşdur. 217, 452

Şilius: Litvanın Ticarət və Sənaye naziri olmuşdur. 338

Şirazi, Hacı Ağa: İranın siyasi xadimi. 446

Şirazi, Seyid Yaqub Ənvər: İranın siyasi xadimi. 446

Şirazi, Ziyaülüdəba: İranın siyasi xadimi. 446

Şirin (Məşhədi Şirin). 621

Şirin Hacı oğlu. 621

Şirinyans: Zəngəzurda yerli azərbaycanlı əhaliyə qarşı soyqırım törədən erməni dəstə başçılarından. 475

Şirvani, Əbdül (Məşhədi Əbdül). 620

Şirvani, Mirismayıl (Hacı Mirismayıl Şirvani). 621

Şkuro, Andrey Qriqoryeviç (1887-1947): Rusiyanın hərbi xadimi, general-leytenant. Kuban kazaklarındandır. Birinci Dünya müharibəsində və Rusiyada Vətəndaş müharibəsində iştirak etmişdir. 1920-ci ildə mühacirətə getmişdir. İkinci Dünya müharibəsində Hitler Almaniyası ilə əməkdaşlıq etmişdir. İngilislər tərəfindən tutularaq SSRİ-yə təhvil verilmiş və Moskvada edam edilmişdir. 38, 91, 168, 225, 546, 574

Şteqervald, Adam [Adam Stegerwald; 1874-1945]: Alman siyasi xadimi. Prussiyada Əmək naziri, Nəqliyyat naziri, Baş nazir kimi vəzifələr tutmuşdur. 442

Şternin, Boris Moiseyeviç: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 24, 76, 104, 156, 214

Şulgin, Vasili Vitalyeviç (1878-1976): Rusiyanın siyasi və ictimai xadimi. Ağqvardiyaçılar hərəkatının ideoloqlarından biri olmuşdur. 225, 280, 299, 522, 540

Şulgin, Vitali Yakovleviç (1822-1878): rus tarixçisi. 299, 540

Şuşinski, Musa (1893-1971): Azərbaycan xanəndəsi və aktyoru. Şuşada anadan olmuşdur. 1912-ci ildə Gəncəyə, 1916-cı ildə Tiflisə köçmüş, 1920-ci ilə qədər Tiflisdə yaşamış və orada Azərbaycan teatr truppasının üzvü olmuşdur. 564

Şücaəddinzadə: Müsəlman Mütəallimləri Təşkilatının üzvü. 534

Şükür Əmin oğlu (Məşhədi Əmin oğlu): Bakı sakini. 644

Şükür Hacı oğlu: Bakıdakı Şamaxı qaçqınlarından. 183

Şükürbəyli, Məhəmmədəli: Salyan Müəllimlər İttifaqı idarə heyətinin üzvü. 484

Tağıyev, Nəsir bəy Hacı Məhəmməd oğlu (1879-1953): Şamaxıda anadan olmuşdur. Dövlət Əmanət Kassaları və Kiçik Kredit İdarəsi müdiri. Sovet dövründə Azərbaycanın Maliyyə komissarı olmuşdur. Bakıda və Moskvada bir sıra yüksək vəzifələrdə işləmişdir. Moskvada vəfat etmişdir. 480

Tağıyev, Rəsul İrani: Bakıda, Naberejnaya küçədə kontoru olmuşdur. 539

Tağıyev, Zeynalabdin (1838-1924): Azərbaycanlı milyonçu və xeyriyyəçi. 33, 264, 265, 347, 355, 420





Tağızadə: Müsəlman Mütəallimləri Təşkilatının üzvü. 534

Tağızadə, Seyid Həsən (1878-1970): İranın siyasi xadimi; diplomat. 445, 446

Takvifa: Terek mahalı bolşeviklərindən. 648

Talakadze: Gürcü bolşeviki; zabit. 648

Talıb Cəfər oğlu (Məşhədi Cəfər oğlu): Gəncədə Kəndçi-Əkinçi İttifaqı Mərkəzi Komitəsinin katibi. 296, 483

Talıbzadə, Abdulla Şaiq (1881-1959): Azərbaycan şairi, yazıçısı və pedaqoqu. 513

Talışinskaya-Xuramoviç, Sara xanım (yaxud Sarabəyim; 1890-1976): Mirkazım xan Talışinskinin qızı, İsmayıl bəy Xuramoviçin arvadı. Qafqaz Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin qurucularından, Azərbaycan Ali Pedaqoji Qadın İnstitutunun direktoru. 530

Talışinskaya, Tuğra xanım (yaxud Tuğrabəyim xanım; 1876-1949): Mir Əsgər xan Talışinskayanın qızı. 401

Talışinski: general-mayor. 431, 475

Talu Cəlil oğlu: Aleksandropol qəzasının (Qərbi Azərbaycan) sakini. 253

Tanailidi, Panfiliya (yaxud Sürəyya Zəngəzurskaya; 1891-1937): aktrisa. Zəngəzur mahalında doğulmuşdur. Milliyyətcə yunan olmuşdur. Tiflisdə Azərbaycan teatrının yaradıcılarından biri olmuş, Tiflis teatrlarında "Sürəyya" təxəllüsü ilə çıxış etmişdir. Sovet rejimi tərəfindən güllələnmişdir. 409, 563

Taprov: Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyi Dəftərxanasının müdiri. 531

Tarhan, Əbdülhaq Hamid (1852-1937): Türk şair və yazıçısı. 77, 350

Tatarinov: mühəndis. 609

Ter-Gevorkov: Qars oblastı Ağbaba dairəsi rəisi. 474

Terpilo, Daniil İliç (Ataman Zelyonı; 1886-1919): Ukrayna inqilabçısı. Təşkil etdiyi silahlı dəstə ilə birgə əvvəlcə getmanlıq tərəfdarlarına və alman işğalçılarına qarşı döyüşmüş, Ukrayna Direktoriyasının hakimiyyətini qəbul etmiş, sonra Direktoriyaya qarşı çıxaraq Ukrayna bolşevikləri ilə əməkdaşlıq etmiş, nəhayət, bolşeviklərə də qarşı çıxmış və Qırmızı ordu dəstələri tərəfindən məhv edilmişdir. 522

Teterin: Könüllü ordu generalı. 225

Teymur. 621

Teymur. 621

Teymur: XIV əsrdə yaşamış görkəmli türk sərkədəsi; Teymurilər dövlətinin banisi. 22

Təkinski, Məhəmməd xan (1880-1938): Azərbaycanın siyasi xadimi və diplomatı. Azərbaycan Cümhuriyyətinin Ermənistandakı siyasi nümayəndəsi (səfiri), həmçinin Azərbaycan Xarici İşlər nazirinin müavini olmuşdur. 7, 147, 186, 318

Tələt paşa (Məhməd Talat paşa; 1874-1921): Osmanlı dövlət xadimi. İttihad və Tərəqqi cəmiyyətinin liderlərindən biri idi. Daxili İşlər naziri, Poçt və Teleqraf naziri, Baş nazir vəzifələrini tutmuşdur. Berlində erməni terrorçusu Teyliryan tərəfindən odlu silahla vurularaq öldürülmüşdür. 167, 281

Tışkeviç: Ukraynanın Qafqazdakı diplomatik missiyasının katibi olmuşdur. 179, 263

Tirokova, V. A.: rus yazıçısı. 84

Tisa, İştvan [Istvan Tisza] (1861-1918): Macarıstanın dövlət xadimi. 1903-1905 və 1913-1917-ci illərdə Baş Nazir olmuşdur. Suiqəsd nəticəsində öldürülmüşdür. 553

Tittoni, Tommazo [Tommaso Tittoni; 1855-1931]: İtaliyanın siyasi xadimi və diplomatı. İngiltərə və Fransada səfir, Xarici İşlər naziri (1903-1905, 1906-1909, 1919), Daxili İşlər naziri (1905), Baş nazir (1905), Senatın Sədri (1919-1929) olmuşdur. 5, 88, 608

Tlexas, Murad Gəray bəy (1873-1920): Azərbaycan Cümhuriyyəti ordusunun general-mayoru. Bakı qarnizonunun rəisi olmuşdur. 28, 189, 420

Tofiq Fikrət (1867-1915): məşhur türk şairi. Türkiyənin ədəbiyyat və incəsənətinə böyük təsiri olan "Sərvəti-fünun" ("Fənnlərin

sərvəti") jurnalının baş redaktoru olmuşdur. 238

Tokumbet, Osman Hidayətulla oğlu (yaxud Tokumbetov; 1888-1950): Rusiya müsəlmanlarının ictimai xadimi; başqırd. Ümumrusiya Müsəlmanları Hərbi Şurası sədrinin müavini olmuşdur. Mühacirətə getmişdir. Berlində vəfat etmişdir. 472

Topçubaşov, Əlimərdan bəy (1863-1934): Azərbaycanın siyasi xadimi; Azərbaycan Cümhuriyyətinin banilərindən biri. Tiflisdə anadan olmuş, Peterburq Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rusiya müsəlmanlarının təşkilatlanmasında və siyasi həyatında müstəsna xidmətləri olmuşdur. Rusyia Dövlət Dumasının üzvü, Dumada Müsəlman fraksiyasının sədri, "Kaspi" qəzetinin redaktoru olmuşdur. Azərbaycan Cümhuriyyəti Parlamentinin sədri, Azərbaycan Hökumətində portfelsiz nazir və Xarici İşlər naziri vəzifələrini tutmuş, Azərbaycan Cümhuriyyətinin Fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula ezam edilmişdir. Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin sədri idi. Cümhuriyyətin süqutundan sonra mühacirətdə qalmış, siyasi fəaliyyətini davam etdirmişdir. Parisdə vəfat etmişdir. 224

Topçubaşova, Pəri xanım (yaxud Topçubaşzadə; 1873-1947): Həsən bəy Zərdabinin qızı, Əlimərdan bəy Topçubaşovun həyat yoldaşı. 560

Topuridze, Diomid (1871-1937): Gürcü inqilabçısı, menşevik. Gürcüstan Parlamentinin üzvü olmuşdur. 403

Toradze: Gürcüstan Müəllimlər Qurultayına Kutaisidən nümayəndə seçilmişdir. 537

Töhmətxan. 621

Trotski, Lev Davidoviç (1879-1930): Rus inqilabçı, dövlət xadimi. Petroqrad Fəhlə və Əsgər Deputatları Soveti icraiyyə komitəsinin sədri, Sovet Rusiyasının Xarici İşlər naziri, Rusiya və SSRİ-nin Hərbi İnqilab Sovetinin sədri və Hərbi Komissarı olmuşdur. 168, 552

Trubetskoy, Yevgeni Nikolayeviç (1863-1920): knyaz; filosof, ictimai xadim; Cənubi Rusiyada kilsə yığıncağının üzvü. 141

Tsentner: Bakıda qadın həkimi olmuşdur. 24, 49, 76, 103, 133, 184, 213, 241, 269, 297, 325, 351, 376, 405, 433, 458, 510, 538, 564, 592, 623

Tuğraxanım Atamoğlan qızı: Bakı sakini; Məşhədi Ağabala Məhəmmədovun arvadı. 73

Tumanov: knyaz; Ermənistanın Gürcüstandakı diplomatik nümayəndəsinin müavini. 509

Tumanyan: Ermənistan Parlamentinin üzvü; Sosialist İnqilabçılar partiyasına mənsub olmuşdur. 132

Tumanyans, Merton xan: İran şahı Əhməd şah Qacarın yavəri. 92

Turda İsmayıl oğlu: Türküstanlı. 618

Türbət Yunis qızı: Bakı sakini. 534

Türkoğlu: "Azərbaycan" qəzetinə Qubadan yazmışdır. 156

Ulmanis, Karlis [Kārlis Ulmanis; 1887-1942]: Latviyanın siyasi xadimi. 1918-1921, 1925-1926, 1931 və 1934-1940-cı illərdə dörd dəfə Baş nazir, 1936-1940-cı illərdə həmçinin Prezident olmuşdur. 607

Ummert: Almaniyanın siyasi xadimi; demokrat. Saarbükkendən Prussiya Milli Məclisinə seçilmişdi. 250

Urabski: Könüllü ordu polkovniki. 225

Urusov, Cior: doktor; Şimali Qafqaz və Dağıstan Müdafiə Şurasının üzvü. 6

Uzun Hacı: bax. Saltınski, Uzun Hacı.

Ümidov: Tiflisdə Azərbaycan teatr truppasının üzvü olmuşdur. 564

Üstündağ, Əkrəm Xeyri (1886-1956): Türk həkimi və siyasi xadimi. Millət vəkili, nazir olmuşdur. 144

Vaçnadze, Asiya: Poçt və Teleqraf Nazirliyi Dəftərxanasında qeydiyyatçı olmuşdur. 302

Vaqner: Alman müəllifi; "Berliner taqeblatt" qəzetində yazmışdır. 97, 98





Vartapetov. 34

Vasilyev, Pyotr: Biləsuvar poçt-teleqraf idarəsi müdiri. 302

Vasserman: Bakıda mama-feldşer olmuşdur. 24, 49, 76, 103, 133, 184, 213, 241, 269, 297, 325, 351, 376, 405, 433, 458, 510, 538, 564, 592, 623

Vasserman, Avqust Paul fon [August Paul von Wasserman; 1866-1925]: Alman mikrobioloqu. 230

Vatson: Qarsdakı ingilis nümayəndələrindən, leytenant. 472

Vexavtasi: Sibir və Uzaq Şərq gürcülərinin nümayəndəsi. 404

Venizelos, Elefterios (1864-1936): Yunanıstanın siyasi xadimi. 1910-cu ildən 1933-cü ilə qədər dəfələrlə (o cümlədən 1917-1920-ci illərdə) Baş nazir vəzifəsini tutmuşdur. 195, 608

Vennola, Yuho [Juho Vennola; 1872-1938]: Finlandiyanın siyasi xadimi; 1919-1920, 1921-1922-ci illərdə Baş nazir olmuşdur. 116

Veysi (1561-1628): klassik türk ədəbiyyatı müəlliflərindən; şeirlərindən çox nəsr əsərləri ilə məşhurdur. 202

Veysman, Haim (1874-1952): Kimya alimi və siyasətçi. Ümumdünya Sionist Təşkilatının prezidenti (1921-1931, 1935-1946), İsrail dövlətinin ilk prezidenti (1948-1952) olmuşdur. 549

Vəkilov: Azərbaycanın Gürcüstandakı siyasi nümayəndəsinin müavini. 179, 420

Vəkilov: Sosial Təminat Nazirliyinin katibi olmuşdur. 207

Vəkilov, Faris bəy İbrahim ağa oğlu (1886-1978): mühəndis, diplomat. Azərbaycan Cümhuriyyətinin Gürcüstanda siyasi nümayəndəsi olmuşdur. 623

Vəkilov, Məhəmməd ağa Mustafa ağa oğlu (1862-1941): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamenti İdarəsinin müdiri olmuşdur. 461

Vəkilov, Mustafa bəy Nadir ağa oğlu (1896-1965): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Parlamentin üzvü olmuş, 1920-ci ildə Daxili İşlər naziri vəzifəsini tutmuşdur. 245

Vəkilov, Rəhim bəy (1898-1934): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. Sovet rejiminin təqibləri üzündən intihar etmişdir. 247

Vəqarülmülk: İranın siyasi xadimi. 446

Vəli xan: bax. Darvazi, Məhəmməd Vəli xan.

Vəlibəyov, Adil bəy: Gəncə sakini. 595

Vəlibəyov, Cahangir bəy: Gəncədə post və teleqraf məmuru olmuşdur. 595

Vəlizadə, Mirzəağa: "İttihad" məktəbində türk dili müəllimi olmuşdur. 477, 583

Vəziri-Müşavir: İranın siyasi xadimi. 446

Vəzirov, Bəhlul bəy: Azərbaycan Poçt İdarəsinin baş müdiri olmuşdur. 94

Vilhelm II (Wilhelm II, 1859-1941): Almaniya imperatoru, 1888-1918-ci illərdə hakimiyyətdə olmuşdur. 124, 135, 434

Vilson, Vudro (Woodrow Wilson; 1856-1924): ABŞ-ın 28-ci prezidenti (1913-1921). Birinci Dünya müharibəsinə son qoymaq üçün sülh müqaviləsi layihəsini (Vilson prinsiplərini) işləyib hazırlamışdır. 59, 85, 107, 115, 117, 141, 167, 168, 173, 194, 227, 316, 317, 330, 339, 340, 365, 390, 442, 497, 542, 543, 547, 549, 634, 635, 636

Vimer, Otto [Otto Wiemer; 1868-1931]: Alman hüquqşünası və jurnalisti; Almaniya Parlamentinin üzvü. 169

Viraxobskaya, S. Y.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 50

Vordrop, Oliver [Oliver Wardrop; 1864-1948]: Britaniyalı diplomat və tədqiqatçı. Hələ 1887-ci ildə Qafqaza (əsasən Gürcüstana) gəlmişdi. Britaniyanın müstəqil Gürcüstanda siyasi nümayəndəsi təyin edilmiş, daha sonra səlahiyyətləri bütün Zaqafqaziyaya şamil edilmişdi. Gürcüstanın sovetləşməsindən sonra öz ölkəsinə qayıtmışdır. 6, 19, 91, 268, 295, 586, 616, 617, 618

Voronkov, İ. V.: Ticarət, Sənaye və Ərzaq Nazirliyində, Əmək Nazirliyində işləmiş, Bakı quberniyasında fabrik müfəttişi olmuşdur. 217

Voskresenski, Vasili Qriqoryeviç (1888-1951): Rusiyanın hərbi xadimi, Rusiya-Yaponiya və Birinci Dünya müharibələrinin iştirakçısı. Qafqaz cəbhəsində döyüşmüş, Rusiyanın İrana göndərdiyi korpusun tərkibinə daxil olmuşdur. 1918-ci ildə Bakıda Hərbi Dəniz Qüvvələri baş komissarı idi. Daha sonra Fransaya köçmüş, Rus balet truppasına rəhbərlik etmişdir. 20, 99, 169

Vrangel, Pyotr Nikolayeviç (1878-1928): Rusiyanın hərbi xadimi; general-mayor. Rusiyada Vətəndaş müharibəsi illərində Ağqvardiyaçılar hərəkatının rəhbərlərindən olmuşdur. 225, 547

Vüsuqüddövlə, Mirzə Həsən xan Mirzə İbrahim xan oğlu (1868-1951): İran dövlət xadimi. 1916-1917 və 1918-1920-ci illərdə Baş nazir olmuşdur. 118, 445

Y.: "Azərbaycan" qəzetinə Qazaxdan yazmışdır. 268

Yablonko: Ticarət, Sənaye və Ərzaq Nazirliyində, Əmək Nazirliyində işləmiş; Baş Fabrik müfəttişi dəftərxanasında makine yazıçısı olmuşdur. 217

Yakobson, B. N.: Bəhri-Xəzər İstehlak Kooperasiya Cəmiyyətinin sədri. 318, 319

Yakovlev: Ermənistan Xarici İşlər Nazirliyi Siyasi şöbəsinin müdiri. 286, 287

Yaqubzadə, Mirqasım (Məşhədi Mirqasım): Bakı sakini. 480

Yaramışev: erməni doktor. 34

Yegyans: Qars vilayətində müstəntiq olmuşdur. 472

Yekaterina II (1729-1796): Rusiya imperatriçası; 1762-1796-cı illərdə hakimiyyətdə olmuşdur. 638

Yelizarov, Pyotr Nikolayeviç: idmançı. 1, 27, 53, 79, 109, 137, 138, 159, 189, 217, 245, 273, 301, 329, 330, 355, 381, 409, 436, 462, 487, 515, 542, 569, 597, 628

Yelizaveta Petrovna (1709-1762): Rusiya imperatriçası. 1741-1762-ci illərdə hakimiyyətdə olmuşdur. 638

Yemelyanov: pəhləvan. 27, 53, 159, 409, 628

Yeni müəllim: "Azərbaycan" qəzetində imza; Şuşadan yazmışdır. 130

Yeramişov: doktor; Qarabağ ermənilərinin ictimai xadimi. 481

Yermak: pəhləvan. 1, 79, 217, 245, 381

Yevanqulov: Ermənistanın Gürcüstandakı siyasi nümayəndəsi təyin edilmişdir. 623

Yudeniç, Nikolay Nikolayeviç (1862-1933): Rusiyanın hərbi xadimi; general. Birinci Dünya müharibəsində Qafqaz ordusunun qərargah rəisi, Rusiyada Vətəndaş müharibəsində Şimal-Qərb ordusunun komandiri olmuşdur. 142, 168, 226, 227, 465, 466, 467, 519, 548, 605, 606, 607

Yurdsevər, Əbdülvahab Məmmədzadə (yaxud Məhəmmədzadə; 1898-1976): publisist və siyasi xadim; Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçısı. Siyasi və ədəbi fəaliyyətini mühacirətdə davam etdirmişdir. 534

Yusif. 621

Yusif: Bakılı yetim uşaq. 155

Yusif (Məşhədi Yusif): İran maarif cəmiyyəti "Tərəqqi"nin xəzinədarı. 506

Yusif Allahkərim oğlu: Küçəkənd sakini. 238

Yusifbəyli, Eynülhəyat (1887-1955): müəllimə. Penzada anadan olmuşdur, Kazan tatarlarındandır. Qızlıq soyadı Baişeva idi. Nəsib bəy Yusifbəylinin həyat yoldaşı olmuşdur. 587

Yusifbəyli, Nəsib bəy (1881-1920): Azərbaycanın dövlət xadimi, Azərbaycan Cümhuriyyətinin qurucularından biri. Odessa Universitetinin Hüquq fakültəsində təhsil almışdır. 1917-ci ildə Gəncədə Türk Ədəmi-Mərkəziyyət Partiyasını qurmuşdur. Zaqafqaziya Seyminin yaradılmasında yaxından iştirak etmiş, Zaqafqaziya Demokratik Federativ Respublikası Hökumətində Maarif naziri olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində Maliyyə və Xalq Maarifi naziri, Xalq Maarifi və Dini Etiqad naziri, Daxili İşlər naziri və Baş Nazir vəzifələrini tutmuşdur. Cümhuriyyətin süqutundan sonra qətlə yetirilmişdir. 18, 19, 21, 45, 48, 69, 82, 102, 121, 127, 135, 162, 294, 357, 489, 630

Yusifbəyov, Nəsib bəy: bax. Yusifbəyli, Nəsib bəy.

Yusifzadə, Ağababa (1886-1937): müəllim, jurnalist. "Hümmət" partiyasının və Bakı Fəhlə Konfransının üzvü idi. Sovet dövründə Bakı qəza İnqilab Komitəsinin sədri, "Kommunist" qəzetinin redaktoru olmuşdur. 266

Yusifzadə, Cəlal (Mirzə Cəlal; 1862-1931): Azərbaycanın siyasi xadimi; şair, yazıçı, pedaqoq. Azərbaycan Cümhuriyyəti Milli Şurasının üzvü olmuşdur. 129

Yusifzadə, Əli (1900-1937): Azərbaycanlı şair, publisist və mütəfəkkir. Şuşada doğulmuşdur. Yazılarında "Rai" təxəllüsündən istifadə etmişdir. Cümhuriyyət Hökuməti tərəfindən xaricə təhsilə göndərilmişdir. 1937-ci ildə Sovet rejimi tərəfindən güllələnmişdir. 73, 181

Yusifzadə, Gövhər xanım: Qazax Mütəəllimlər Cəmiyyəti katibinin müavini. 432

Yusifzadə, Rəşid: Hacıbəyli Qardaşları Müdiriyyətinin Qarabağ şöbəsinin müdiri. 130

Z. Ayn.: "Azərbaycan" qəzetində imza. 262, 530, 615

Zakir Bağır oğlu: Yirvanlı kəndi sakini. 238

Zakoroyko, Pavel: pəhləvan. 53, 159, 189, 217, 301, 329, 355, 542, 569

Zaqorski: Azərbaycan hərbçisi; kapitan. 318

Zavertalnı: dövlət malını qanunsuz sərf etməkdən həbs edilmişdir. 318

Zavriyev, Akop (yaxud Yakov; 1875-1920): Erməni siyasi xadimi. Petroqradda Hərbi Tibb Akademiyasını bitirmişdir. Xüsusi Zaqafqaziya Komitəsinin heyətinə daxil idi. Daşnaksutyun partiyasının fəal üzvlərindən idi. Rusiyadakı Erməni Milli Komitəsi adından Avropaya, oradakı erməni komitələri ilə əlaqə yaratmaq məqsədi ilə göndərilmişdi. 473

Zeits, Karl [Karl Seitz; 1869-1950]: Avstriyanın siyasi xadimi. Avstriya Sosial-Demokrat Partiyasının sədri (1919-1934) və Avstriyanın Birinci Federal Prezidenti (1919-1920) olmuşdur. 491

Zelenkoviç: vəkil. 346

Zelyonı (Ataman Zelyonı): bax. Terpilo, Daniil İliç.

Zeydan, Corci (1861-1914): ərəb yazıçısı və publisisti. 567

Zeylidzon, D. İ.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 186, 242, 298, 353, 406, 459, 511, 539, 593

Zeynallı, Hənəfi (1896-1937): Azərbaycanlı müəllim, yazıçı, tənqidçi və ədəbiyyatşünas. Bakıda anadan olmuşdur. İlk qələm təcrübələri Cümhuriyyətdən əvvəl çap edilmişdir. "Azərbaycan" qəzetində "M. Hənəfi", "M. H." imzaları Hənəfi Zeynallıya məxsusdur. Bolşevik işğalından sonra ədəbiyyatşünas kimi fəaliyyətini davam etdirmiş, xüsusilə Azərbaycan şifahi xalq ədəbiyyatını tədqiq etmişdir. Eyni zamanda ictimai həyatda yaxından iştirak edən Zeynallı, represiya qurbanı olmuş, 1937-ci ildə Bakıda güllələnmişdir. 1957-ci ildə bəraət almışdır. 238

Zeynalov, Ələkbər Əbdüləli oğlu (Hacı Əbdüləli oğlu): Bakı sakini. 186

Zeynalov, Mirhüseyn (Hacı Mirhüseyn): Xırda İstiqraz və Əmanət Cəmiyyətləri İttifaqının Şura üzvlüyünə namizəd. 319

Zeynalzadə, Mirzəağa (Molla Mirzəağa). 268

Zəhra: Bakı sakini. 71

Zəngəzurskaya Sürəyya: bax. Tanailidi, Panfiliya.

Zərdüşt (Zoroastr). 200

Zərgərli, İsmayıl: Salyan Realnı məktə-

bində oxumuşdur; "Azərbaycan" qəzetinə Salyandan yazmışdır. 622

Zifer, Marya. 245

Zilqaçov, Kiril: Tabaqçılar İttifaqının üzvü. 182

Zimin: Könüllü ordu polkovniki. 225

Zinkeviç: Rusiyanın hərbi xadimi; Könüllü ordu polkovniki. 456

Zinovyev, Qriqori Yevseyeviç (1883-1936): Rus inqilabçı, SSRİ-nin dövlət xadimi. Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü olmuşdur. 1934-cü ildə həbs edilmiş və 1936-cı ildə güllələnmişdir. 168, 338, 574

Zinyeviç, Pyotr: Astara poçt-teleqraf idarəsinin müdiri. 302

Ziya bəy: Türkiyənin hərbi xadimi. 172

Ziya paşa (Əbdülhəmid Ziyaəddin; 1829-1880): Osmanlı imperiyasının dövlət xadimi, mütəfəkkir, şair və yazıçı. 202

Ziyadxanov, Adil xan (yaxud Ədil xan; 1877-1957): Azərbaycanın dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Cümhuriyyət dövründə Xarici İşlər nazirliyində işləmiş, Azərbaycanın İranda diplomatik nümayəndəsi təyin edilmişdir. Cümhuriyyətin süqutundan sonra bir müddət İranda, daha sonra Türkiyədə yaşamışdır. 125, 147

Zülfüqarov, Həbib: milis. 182

Zülfüqarov, Məhəmmədhəsən Xocahanlı. 375

Zülqədərli, Lütfəli bəy Mehralı bəy oğlu (1881-1920): Gəncədə iri mülkədar ailəsində anadan olmuşdur. Cəbrayıl, Gəncə və Ərəşdə pristav, Şamaxı, Göyçay və Cavad qəzalarında qəza rəisi olmuşdur. 403

Zülqədərov: Şamaxı qəzası Qoşun sahəsinin pristavı olmuşdur. 398

Zülqədərov, Lütfəli bəy: bax. Zülqədərli, Lütfəli bəy.